QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 120 (5351) 11 **iyul** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# İlham Əliyev: "Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birinin yanındadır"

*Prezident İlham Əliyev İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində iştirak edib*



Səh 2

8

**XİN: "Ermənistan substantiv danışıqları davam etdirməyə mane olur"**



10

**İtaliya mətbuatı Ermənistan ordusunun Alxanlı kəndində törətdiyi vəhşilikdən yazır**



10

**Ölkəmizə səfər edən turistlərin sayı ilbəil artır**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

11 iyul 2017-ci il

# İlham Əliyev: "Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birinin yanındadır"

*Prezident İlham Əliyev İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində iştirak edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində iştirak etmək üçün iyulun 9-da Türkiyə Respublikasına səfərə gəlib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi. Dövlətimizin başçısı fəxri qarovul dəstəsini salamladı. Azərbaycan Prezidentini İstanbul valisi Vasip Şahin və digər rəsmi şəxslər qarşıladılar.***



## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb, birgə şam ediblər

İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb və birgə şam ediblər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı. Dövlət başçıları birgə foto çəkdirdilər və şam etdilər. Görüşdə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin yüksək səviyyədə olduğu bildirildi.



Prezident İlham Əliyev 22-ci Dünya Neft Konqresinin Türkiyədə keçirilməsi münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğanı təbrik etdi.

Söhbət zamanı ölkələrimiz arasında energetika sahəsində strateji əhəmiyyətli layihələrin uğurla icra olunduğu qeyd edildi, xüsusilə TANAP layihəsinin gələn il başa çatacağı məmnunluqla vurğulandı. Azərbaycan və Türkiyə prezidentləri ölkələrimizin hərbi sahədə əməkdaşlığının daha da genişləndirilməsi və möhkəmləndirilməsi haqqında söhbət etdilər.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi. Prezident İlham Əliyev son vaxtlar təmas xəttində Ermənistanın təxribatları və hərbi cinayətləri barədə Türkiyə Prezidentinə ətraflı məlumat verdi. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin həmişə olduğu kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həllinə dəstək verdiyini vurğuladı. Dövlət başçıları qeyd etdilər ki, Türkiyə və Azərbaycan bütün məsələlərlə bağlı bir-birinin yanındadırlar.

## Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-ın dövlət katibi ilə görüşü olub

İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İstanbulda ABŞ-ın dövlət katibi Reks Tillerson ilə görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi və enerji sahələrində uğurla inkişaf etdiyi qeyd olundu.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi. Prezident İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyini bir daha bildirdi, Ermənistanın təmas xəttində son hərbi təxribatı haqqında məlumat verdi. Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" layihəsinin icrası ilə bağlı görülən işlərdən danışdı. Reks Tillerson qeyd etdi ki, ABŞ bu layihənin həyata keçirilməsinə bundan sonra da dəstək verəcək.

*Ardı Səh. 3*

# İlham Əliyev: “Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birinin yanındadır”

*Prezident İlham Əliyev İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində iştirak edib*




Əvvəli Səh. 2

Prezident İlham Əliyev XXIV Beynəlxalq Xəzər Neft və Qaz Sərgi və Konfransının açılışı münasibətilə göndərdiyi təbrik məktubuna görə ABŞ Prezidenti Donald Trampa minnətdarlığının çatdırılmasını Reks Tillersondan xahiş etdi. Dövlətimizin başçısı bu məktubu ABŞ-ın Azərbaycanın enerji siyasətinə, xüsusilə “Cənub Qaz Dəhlizi” layihəsinə dəstəyi kimi dəyərləndirdi. ABŞ-ın dövlət katibi Azərbaycanın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda fəaliyyətini, eyni zamanda, ölkəmizin bu əməliyyatlarda logistik və nəqliyyat dəhlizi rolunu yüksək qiymətləndirdi. Söhbət zamanı, həmçinin ölkəmizdə həyata keçirilən siyasi və iqtisadi islahatlar, demokratiyanın inkişafı ilə bağlı məsələlər müzakirə edildi.

## Prezident İlham Əliyev, Prezident Rəcəb Tayyib Ərdoğan, 22-ci Dünya Neft Konqresində iştirak edən dövlət və hökumət başçıları arasında qısa söhbət olub

İyulun 10-da İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresi işə başlamazdan əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Serbiya Prezidenti Aleksandr Vuçiç, Türkiyənin Baş naziri Binəli Yıldırım, Albaniyanın Baş naziri Edi Rama, Bolqarıstanın Baş naziri Boyko Borisov, Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak və Dünya Neft Şurasının prezidenti Cozef Tot arasında qısa söhbət olub.



## Prezident İlham Əliyev 22-ci Dünya Neft Konqresində prezidentlərin tədbirində iştirak edib

İstanbulun ev sahibliyi etdiyi 22-ci Dünya Neft Konqresi çərçivəsində iyulun 10-da prezidentlərin tədbiri keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Konqres ötən il iyulun 15-də Türkiyədə baş verən hadisələr zamanı həlak olan şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başladı. Dünya Neft Şurasının sədri Cozef Tot 1933-cü ildə yaradılan bu qurumun dünya neft sektorunun bütün sahələrini əhatə etdiyini və hər üç ildən bir keçirildiyini bildirdi. Bu dəfə İstanbulda “Enerji gələcəyimizə körpülər” devizi altında təşkil olunan 22-ci Dünya Neft Konqresinə 100-dən çox ölkədən 50 nazirin, 5 mindən çox dövlət nümayəndəsinin və şirkət rəhbərlərinin qatıldığını deyən Cozef Tot Konqres çərçivəsində aparılan müzakirələrin faydalı olacağına əminliyini ifadə etdi.

Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak Konqresə ev sahibliyi etməyin Türkiyə üçün qürurverici olduğunu deyərək Moskvada keçirilən son Konqresdən sonra bir çox işlərin görüldüyünü, mühüm nəticələrin əldə olunduğunu bildirdi. Son illərdə Türkiyədə neft-qaz sektorunun inkişafı ilə bağlı görülən işlərdən danışan nazir enerji sahəsinə artan tələbatın ödənilməsinin, özəl sektorda yatırımların həcminin artırılmasının, milli enerji siyasətinin təməl prinsiplərinin gücləndirilməsinin diqqət mərkəzində saxlanıldığını vurğuladı. Qarşıda duran vəzifələrdən danışarkən Berat Albayrak boru kəməri layihələrinin genişləndirilməsinin də əhəmiyyətinə toxundu, qlobal enerji layihələrində Türkiyənin hər zaman təbii müttəfiq olacağını bildirdi:

- Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP, “Türk Axını” və Şərqi Aralıq Dənizi qaz layihələri Türkiyənin və Avropanın təbii qazla təchizatı mənbələrinin şaxələnməsi baxımından çox əhəmiyyətlidir. Türkiyə enerji sektoruna yatırılan investisiyaların artırılmasında maraqlıdır.

Sonra müasir dövrdə həyatın və sivilizasiyanın mənbəyi olan enerjinin əhəmiyyətinə həsr olunan videoçarx nümayiş etdirildi.

Bolqarıstanın Baş naziri Boyko Borisov çıxışında Balkan regionunda neft-qaz sektoru baxımından önəmli mövqeyə malik olan ölkəsinin gələcəkdə Avropanın təbii qazın paylanması mərkəzinə çevrilmə ehtimalının böyük olduğunu bildirdi və bu məsələdə Balkan regionunun əhəmiyyətindən danışdı. O, Azərbaycandan gələn təbii qazın qəbulu və ötürülməsində də Bolqarıstanın önəmli rol oynadığını diqqətə çatdırıb:

- Avropaya Azərbaycan, Rumıniya və Rusiya ilə yanaşı, Bolqarıstan vasitəsilə də təbii qaz nəql etmək imkanımız olacaq. Bununla bağlı 1 milyard kubmetr qazın nəql edilməsi üçün Azərbaycan ilə müzakirələr aparmışıq. Biz qaz anbarlarımızın daha da inkişaf etdirilməsi ilə bağlı əlimizdən gələni edəcəyik.

Albaniyanın Baş naziri Edi Rama da neft-qaz sektorunun inkişafı sahəsində ölkəsinin böyük imkanlarının olduğunu, bu baxımdan Balkan regionunda önəmli məntəqəyə çevrildiyini bildirdi. Neft-qaz, ümumiyyətlə, enerji sektorunda Albaniyanın böyük perspektivlərindən danışan Edi Rama Xəzərdən gələn enerjinin 2020-ci ildə Avropaya çatacağını və Albaniyanın da təbii qazın qitəyə ötürülməsində önəmli məntəqə olduğunu dedi, enerji sahəsində fəaliyyət göstərən şirkətləri ölkəsinə sərmayə qoymağa dəvət etdi.

*Ardı Səh. 4*

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

11 iyul 2017-ci il

# İlham Əliyev: “Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birinin yanındadır”

## Prezident İlham Əliyev İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində iştirak edib



Əvvəli Səh. 3

“Dünyada önəmini qoruyub saxlayan enerji sektorunun müasir dövrdə ölkələrin və xalqların mənafeyinə xidmət etməsi vacibdir”, - deyən Türkiyənin Baş naziri Binəli Yildırım bu sahədə ölkəsinin həyata keçirdiyi tədbirlərdən danışdı, enerji təhlükəsizliyinin siyasi problemlərinin həllinə, sülhün təmin olunmasına xidmət etməsinin vacibliyini bildirdi. Binəli Yıldırım Türkiyənin Azərbaycan və Gürcüstan ilə birgə həyata keçirdiyi Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələrinin önəmini vurğulayıb:

- Regional əməkdaşlığın nə dərəcədə önəmli olduğunu Azərbaycan və Gürcüstanla birgə həyata keçirdiyimiz Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri layihələri ilə regiona və dünyaya nümayiş etdirdik. Bu əməkdaşlığı hazırda “Cənub Qaz Dəhlizi” layihəsi çərçivəsində həyata keçirdiyimiz Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsi ilə də davam etdiririk.

TANAP-ın gələn il istifadəyə verilməsi nəticəsində Türkiyə hər il Azərbaycandan əlavə olaraq 6 milyard kubmetr təbii qaz alacaq. Bundan başqa, 2020-ci ildən etibarən bu xətt vasitəsilə Avropaya 10 milyard kubmetr qaz ixracı məsələsi gündəmdə olacaq.

Sonra Türkiyənin dünya enerji xəritəsində oynadığı roldan bəhs edən növbəti videoçarx göstərildi. Videoçarxda Türkiyənin mədəniyyətindən, geosiyasi mövqeyindən, bu ölkənin bölgədə sülhün və təhlükəsizliyin qorunmasındakı rolundan danışıldı. Qədim zamanlarda İpək Yolunun kəsişməsində yerləşən Türkiyənin bu gün enerji kəmərlərinin kəsişdiyi nöqtədə durmasının əhəmiyyəti vurğulandı.

Hazırda enerji təminatının ölkəsinin xarici siyasətində ən önəmli yerlərdən birini tutduğunu deyən Serbiya Prezidenti Aleksandr Vuçiç bu məsələ ilə bağlı gələcəyə yönələn tədbirlərdən danışdı, beynəlxalq



əməkdaşlığın diqqət mərkəzində saxlandığını bildirdi. Etibarlı enerji tədarükünün Serbiya üçün xüsusi önəm daşıdığını deyən Aleksandr Vuçiç ölkəsinə ixrac olunan mavi yanacağın həcminin artırılması ilə bağlı tədbirlərin görüldüyünü vurğuladı, alternativ enerji mənbələri ilə bağlı həyata keçirilən siyasətin Serbiyanın gündəmində olduğunu diqqətə çatdırdı.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi:

- Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan.

Hörmətli xanımlar və cənablar. Qardaş Türkiyə torpağında yenidən olmağımdan çox məmnunam. Fürsətdən istifadə edərək, qardaş türk xalqına sülh, rifah, tərəqqi arzulayıram.

Prezident Ərdoğana minnətdaram ki, məni bu Konqresə dəvət etdi. Mənə göstərilən qonaqpərvərliyə görə də minnətdaram.

Türkiyə bu gün dünya miqyasında böyük bir gücdür. Türkiyə dünya gündəliyinin bir çox məsələlərində həlledici sözə malikdir. Bütün bu uğurlar mənim qardaşım Prezident Ərdoğanın liderliyi ilə əldə edilibdir. Bu gün Türkiyə uğurla, sürətlə inkişaf edir. Türkiyə Prezident Ərdoğanın liderliyi ilə çox böyük və şərəfli yol keçmişdir. Bugünkü toplantı bunun təzahürüdür. Türkiyə güclən-dikcə biz də güclənirik, biz də sevinirik. Fürsətdən istifadə edərək qardaş türk xalqına bütün Azərbaycan bacı-qardaşlarının səmimi salamlarını çatdırıram.

Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birinin yanındadır. Bizim əməkdaşlığımız çoxşaxəlidir və bütün sahələri əhatə edir. O cümlədən, enerji sahəsində Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi bir çox önəmli strateji layihələrin icrasına imkan verdi. Onların arasında Bakı-Tbilisi-Ceyhan neft kəmərini, Bakı-Tbilisi-Ərzurum qaz kəmərini və TANAP layihəsini xüsusi qeyd etmək istərdim. Bu layihələr nəinki regionumuzun, dünyanın enerji xəritəsini yenidən tərtib etdi.

Azərbaycan qədim neft diyarıdır. Əslində biz hesab edirik ki, Azərbaycan neftin vətənidir. Çünki dünyada sənaye üsulu ilə ilk dəfə neft 1846-cı ildə məhz Azərbaycanda, Bakıda çıxarılmışdır. Ondan bir əsr sonra - XX əsrin ortalarında yenə də dünyada ilk dəfə olaraq dənizdən neft Xəzər dənizinin Azərbaycan sektorunda Azərbaycan neftçiləri tərəfindən hasil edilmişdir. Lakin o vaxt Azərbaycan müstəqil deyildi və biz təbii sərvətlərimizdən tam istifadə edə bilmirdik. Ancaq müstəqillik dövründə Azərbaycan xalqı öz taleyinin, öz təbii sərvətlərinin sahibi oldu. Müstəqillik dövründə bu təbii sərvətlər ölkəmizin inkişafına, xalqın rifah halının yaxşılaşmasına xidmət etməyə başlamışdır. Müstəqilliyimizin ilk illərində - 1994-cü ildə Azərbaycan ilk dəfə olaraq Xəzər dənizindəki karbohidrogen yataqlarını xarici sərmayədarların üzünə açdı.

1994-cü ildən etibarən Azərbaycanın neft sənayesinə böyük sərmayə qoyulmağa başlanmışdır. Eyni zamanda, 1994-cü il ona görə əlamətdar bir tarixdir ki, məhz o ildə “Əsrin kontraktı” imzalanmışdır.

Ardı Səh. 5

# İlham Əliyev: "Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birinin yanındadır"

## *Prezident İlham Əliyev İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində iştirak edib*

Əvvəli Səh. 4




Bu kontrakt Bakı-Tbilisi-Ceyhan kəmərinin neftlə doldurulmasında əsas rol oynayır. Ondan sonra Azərbaycanda çox zəngin "Şahdəniz" qaz yatağı aşkar edilmişdir. Bu yatağın qaz ehtiyatlarının həcmi 1,2 trilyon kubmetrdir. Bu, dünya miqyasında ən böyük qaz yataqlarından biridir və bu gün Cənub Qaz Dəhlizinin resurs bazasının əsasını təşkil edir. Beləliklə, artıq Azərbaycan müasir dövrdə neft və qazı hasil və ixrac edən ölkəyə çevrilmişdir. Bizim ölkəmiz dünya bazarlarına çıxış əldə etmək üçün neft-qaz kəmərləri tikməli idi. Çünki bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Bu məqsədlə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri və 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmişdir. Ondan bir neçə il əvvəl Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəməri tikilmişdir. Beləliklə, Azərbaycanın təbii resurslarının dünya bazarlarına çıxarılması üçün kifayət qədər böyük şəbəkə yaradılmışdır. 2006-cı ildə Ceyhanda qardaşım Prezident Ərdoğanla bir yerdə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışında iştirak edirdik və o vaxt da biz gələcək planlar haqqında düşünürdük, fikir mübadiləsi aparırdıq. O vaxtdan bu günə qədər bizim bütün planlarımız uğurla reallaşır. Çünki biz bu gün Cənub Qaz Dəhlizi kimi meqa layihənin üzərində çalışırıq, onun da təməli Türkiyədə, bu gözəl İstanbul şəhərində qoyulmuşdur. 2012-ci ildə qardaşım Prezident Ərdoğanla TANAP layihəsi haqqında müqaviləni imzaladıq. TANAP layihəsi Cənub Qaz Dəhlizinin özəyidir. Məhz ondan sonra bütün digər istiqamətlər üzrə işlər başlamışdır. Bu gün "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Bu layihə 4 hissədən ibarətdir. Birinci hissə "Şahdəniz" qaz yatağıdır, orada "Şahdəniz-2" layihəsinin icrası artıq 93 faizə çatıbdır, yaxın aylarda tam başa çatacaqdır. İkinci hissə Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz qaz boru kəməridir. Orada da işlər 87 faiz səviyyəsində tamamlanmışdır. Üçüncü və ən əsas hissə TANAP qaz kəməridir. Burada da tamamlanma səviyyəsi 77 faizdir və biz gələn il bu layihənin icrasını qeyd edəcəyik. Nəhayət, dördüncü hissə TAP - Trans-Adriatik kəməridir. Burada da icra 44 faiz səviyyəsindədir. Bütün bu dörd önəmli layihə Cənub Qaz Dəhlizini təşkil edir. Bu layihənin icrası üçün 40 milyard dollar sərmayə tələb olunur, onun böyük hissəsi artıq qoyulubdur.

Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Gələcək onilliklər ərzində Azərbaycan qazı həm region, həm də Avropa ölkələrinin tələbatını ödəyəcəkdir.

"Cənub Qaz Dəhlizi" layihəsinin icrasında yeddi ölkə iştirak edir: Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Üç Balkan ölkəsi də gələcəkdə Cənub Qaz Dəhlizinə qoşula bilər. Bu istiqamətdə də müvafiq işlər aparılır. Yəni, biz bu layihənin coğrafiyasını genişləndiririk, gələcəkdə daha da genişləndirə bilərik. Çünki bu, hər bir ölkəyə fayda gətirən təşəbbüsdür. Bu layihənin icrası onu göstərir ki, burada iştirak edən bütün ölkələr və şirkətlər qazanc əldə edirlər. Biz elə bir gözəl əməkdaşlıq formatı yaratdıq ki, həm hasilatçılar - yəni, Azərbaycan, həm tranzit ölkələr və həm də istehlakçılar burada ortaq maraqlar əsasında çalışırlar. Məhz bu maraqlar balansı bu böyük layihənin uğurlu icrasına gətirib çıxarıb.

Ardı Səh. 6



# İlham Əliyev: "Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birinin yanındadır"

*Prezident İlham Əliyev İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində iştirak edib*





Əvvəli Səh. 5

Çünki burada həm texniki, maliyyə, iqtisadi, siyasi məsələlər kifayət qədər çoxdur. Artıq bu gün demək olar ki, "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra ediləcək və Azərbaycan bundan sonra uzun illər ərzində həm bölgə, həm də Avropa ölkələrini təbii qazla təmin edəcəkdir.

Bu gün qaz amili dünyada enerji təhlükəsizliyini təmin edən əsas şərtdir. Bu baxımdan Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində öz töhfəsini verməkdədir. Eyni zamanda, Azərbaycan qazı Avropaya nəql ediləcək yeganə yeni qaz mənbəyidir. Çünki qalan bütün qaz mənbələri fəaliyyətdədir. Artıq yeni mənbə aşkarlanıbdır. Bu qaz ehtiyatları yeni xətlə Avropa bazarlarına çıxarılacaqdır. Yəni, bizim üstünlüyümüz ondan ibarətdir ki, burada hər iki amil var. Bu da enerji şaxələndirilməsi istiqamətində çox ciddi bir addımdır.

Azərbaycan öz məsuliyyətini dərk edir. Biz yaxşı başa düşürük ki, tərəfdaş ölkələrlə birlikdə icra etdiyimiz layihələr bir çox ölkələrin enerji balanslarını və enerji təhlükəsizliyini təmin edəcək, onlara kömək edəcək. Biz bu məsuliyyəti öz üzərimizə götürərək ümid edirəm ki, yaxşı nəticələr göstəririk.

Bu Konqresdə əlbəttə ki, neft, qaz məsələləri diqqət mərkəzindədir. Mən çıxışımın sonunda bir məsələyə də toxunmaq istəyirəm. Adətən neftlə zəngin olmayan ölkələr düşünürlər ki, kaş bizdə də neft olaydı, biz də bundan istifadə edə biləydik. Amma mən deyə bilərəm ki, neft həm fayda gətirə bilər, həm də problem, başağrısı yarada bilər. Baxır neftdən necə istifadə edirsən. Biz Azərbaycanda çalışırdıq və hesab edirəm buna nail olduq ki, "qara qızıl"ı insan kapitalına çevirək. Biz neftdən əldə edilən gəlirləri, ilk növbədə, çox şəffaf şəkildə qoruyuruq. Azərbaycan Dövlət Neft Fondu dünyada mövcud olan neft fondları arasında ən şəffaf fondlardan biridir və Birləşmiş Millətlər Təşkilatının da mükafatına layiq görülmüşdür. Yəni, birinci şərt budur - tam şəffaflıq. Bizim Neft Fondumuzda yığılan vəsaitlə bağlı məlumatlar mütəmadi qaydada ictimaiyyətə çatdırılır.

İkinci məsələ, neftdən əldə edilən gəlirlərdən düzgün istifadə olunmalıdır. Biz neftdən əldə edilən gəlirləri, ilk növbədə, infrastruktur layihələrinə yönəltdik. Bu gün biz nəinki nefti, qazı, eyni zamanda, son illər ərzində tikdiyimiz onlarla elektrik stansiyasının istehsal etdiyi enerjini də ixrac edirik. Biz sosial infrastruktur layihələrinə böyük vəsait qoyduq - məktəb, xəstəxana tikintisi. Yoxsulluqla çox ciddi mübarizə aparılır. Neft sektoru əslində çox iş yeri yaradan sektor deyil. Amma buna baxmayaraq, biz neftdən əldə olunan gəlirləri digər sektorlara yönəldərək yoxsulluğu, işsizliyi aşağı səviyyəyə sala bildik və bu gün bu, təxminən 5-6 faiz səviyyəsindədir. Yəni, düzgün siyasət və düzgün atılan addımlar nefti həm fayda çevirə bilər, həm də bu sərvət ölkələr üçün problem yarada bilər.

Hesab edirəm ki, Azərbaycan təcrübəsi uğurludur. Bizim ölkəmizə xarici sərmayə də böyük həcmdə qoyulur. Öz növbəmizdə, biz də xarici ölkələrə sərmayə qoyuruq. Burada da birinci yerdə qardaş ölkə Türkiyədir. Türkiyənin enerji sektoruna bu günə qədər 10 milyard dollar sərmayə qoyulubdur. Növbəti illərdə bu rəqəm təxminən iki dəfə artacaqdır. Bir sözlə, əziz dostlar, bu gün biz enerji təhlükəsizliyi deyəndə əlbəttə ki, icra etdiyimiz layihələr yada düşür. Bir daha çıxışımın əvvəlinə qayıtmaq istəyirəm. Türkiyə-Azərbaycan birliyi, dostluğu, qardaşlığı təkcə iki ölkənin mənfəətini, uğurlu gələcəyini müəyyən etmir. Bunun bölgəyə çox böyük təsiri var. Bu, bölgəyə sabitlik, rifah gətirir, yeni iş yerlərinin yaradılmasına xidmət göstərir, təhlükəsizlik tədbirlərini gücləndirir və geniş əməkdaşlığa qapılar açır. Əziz qardaşım, dəvətə və mənə göstərilən qonaqpərvərliyə görə Sizə bir daha minnətdaram. Konqresin işinə uğurlar arzulayıram. Sağ olun.

***

Türkiyənin malik olduğu neft-qaz kəmərləri sistemindən, bu ölkənin enerjidən təhlükəsizlik və sülhün təmin olunması istiqamətində necə yararlanması ilə bağlı videoçarxın nümayişindən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi. İstanbulun bu Konqresə ev sahibliyi etməsindən məmnun olduğunu deyən Türkiyə dövlətinin başçısı müasir dövrdə sülhün və rifahın təməli olan karbohidrogen resurslarının münaqişələrə səbəb olmasından təəssüfləndiyini söylədi, Türkiyənin dünyanın enerji xəritəsində mühüm rol oynadığını, yeni layihələrin də bu mövqeyi gücləndirəcəyini diqqətə çatdırdı.

Bu çərçivədə Rusiya ilə birgə həyata keçirilən "Türk axını" layihəsinin də əhəmiyyətini vurğulayan Rəcəb Tayyib Ərdoğan enerjinin sülh və təhlükəsizlik vasitəsinə çevrilməsi istiqamətində səylərin artırılmasının vacibliyini bildirdi. 2050-ci ilə qədər enerjiyə olan tələbatın bu günlə müqayisədə iki dəfə artacağını deyən Türkiyə Prezidenti dünya enerji siyasətinin hazırda enerji qaynaqlarını şaxələndirməyə yönəldiyini diqqətə çatdırdı.

"Bölgəmizin sülhə və əməkdaşlığa ehtiyacı var", - deyən Rəcəb Tayyib Ərdoğan Körfəz böhranı da daxil olmaqla, Suriya və digər regionlarda baş verən qarşıdurmaların tezliklə həll olunmasının vacibliyini vurğulayaraq Avrasiyada enerji siyasətində mühüm oyunçulardan olan Türkiyənin enerji qaynaqlarının təhlükəsizliyinin təmin olunması, bu sahədə terror təşkilatlarının fəaliyyətinin qarşısının alınması istiqamətində bundan sonra da qərarlı siyasət yürüdəcəyini bəyan edərək dedi: -Azərbaycan neftinin Aralıq dənizinə çatdırılmasını təmin edən Bakı-Tbilisi-Ceyhan, həmçinin Azərbaycan təbii qazının ölkəmizə və Avropaya nəqlini mümkün edən Bakı-Tbilisi-Ərzurum boru kəmərlərinin inşasını uğurla başa çatdırdıq.

Hazırda Türkiyə üçün yeni layihələr sırasında prioritet bir az əvvəl deyildiyi kimi, Cənub Qaz Dəhlizidir. Cənub Qaz Dəhlizinin əsas hissələrindən biri olan Trans-Anadolu qaz boru kəməri, yəni TANAP vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya isə 10 milyard kubmetr Azərbaycan qazı ixrac olunacaq. TANAP kəmərinin gələn ilin ortalarında fəaliyyətə başlaması ilə Azərbaycanla yanaşı, Xəzər və hətta gələcəkdə Orta Şərq regionundan da ölkəmizə və Avropaya təbii qaz nəqlinin imkanları yaranacaq. TANAP xəttinin davamı olan Trans-Adriatik qaz boru kəməri layihəsinin - TAP-ın da planlaşdırıldığı kimi, inşallah, 2020-ci ildə istismara verilməsi gözlənilir. Bu məsələdə dostum cənab Prezident İlham Əliyevin, həm də "Cənub Qaz Dəhlizi" layihəsində iştirak edən digər ölkələrin və şirkətlərin rəhbərlərinin tam qətiyyətli mövqeyini məmnuniyyətlə görürük.

***

## Sonda birgə foto çəkdirildi.

***

Qeyd edək ki, Dünya Neft Konqresinin əsas təşkilatçısı olan Dünya Neft Şurası neft və qaz sənayesi üzrə mühüm məsələlərin müzakirə olunduğu və vacib qərarların qəbul edildiyi beynəlxalq platformadır. Bitərəf və qeyri-siyasi qurum olan Dünya Neft Şurası bu sahədə elmi yeniliklərin tətbiqi, texnologiya və informasiya mübadiləsi, dünyanın neft ehtiyatlarından davamlı və hamının rifahına xidmət edəcək şəkildə istifadə olunması istiqamətlərində fəaliyyət göstərir. Yetmiş üzv ölkəni birləşdirən Dünya Neft Şurası dünyada neft-qaz istehsalçıları və istehlakçılarının 96 faizini əhatə edir.

## Səfər başa çatdı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına səfəri iyulun 10-da başa çatıb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi. Dövlətimizin başçısı fəxri qarovul dəstəsini salamladı. Azərbaycan Prezidentini Türkiyənin rəsmi şəxsləri yola saldılar.






# YAP Zərdab rayon təşkilatının VIII konfransı keçirilib

Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının VIII konfransı keçirilib. Konfrans iştirakçıları Heydər Əliyev Parkında ucaldılmış Ulu Öndər Heydər Əliyevin əzəmətli abidəsini ziyarət edərək, abidə önünə tər çiçəklər düzməklə Onun əziz xatirəsini ehtiramla yad ediblər.

Konfransdan əvvəl Yeni Azərbaycan Partiyasının yaranması, təşəkkülü və keçdiyi inkişaf yoluna, həmçinin, YAP Zərdab rayon təşkilatının hesabat dövründə gördüyü işlərə dair video görüntü nümayiş etdirilib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin və ötən konfransdan keçən müddətdə dünyasını dəyişmiş partiya üzvlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

VII konfransda ötən dövr ərzində görülən işlər barədə YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova məruzə ilə çıxış edib: "Ötən təsis konfransından keçən dövr ərzində YAP Zərdab rayon təşkilatı sıralarını xeyli genişləndirib: "YAP Zərdab rayon təşkilatı Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsinə uyğun olaraq, qarşıya qoyulan vəzifələrin öhdəsindən bundan sonra da layiqincə gələcək. Rayon təşkilatı hər zaman nümunəvi fəaliyyəti ilə fərqlənməyə çalışıb, ölkəmizdə keçirilmiş prezident, parlament və bələdiyyə seçkilərində, eləcə də, Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı keçirilən referendumda üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib".

Konfransda gündəliyə müvafiq olaraq nəzarət-təftiş qrupunun sədri İlham Musayev çıxış edərək, ötən dövr ərzində görülən işlər barədə hesabatı konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Məruzə ətrafında YAP Zərdab rayon təşkilatı gənclər birliyinin sədri Ələkbər Kərimov, YAP Zərdab rayon təşkilatı qadınlar şurasının sədr müavini Nailə Əliyeva, "Tərəqqi" medalı, əməkdar müəllimə Cəvahir İsmayılova və başqaları çıxış edərək, ötən konfransdan keçən müddətdə görülən işlər, keçirilən tədbirlər barədə konfrans iştirakçılarına məlumat verərək, təşkilatın hesabat dövründəki fəaliyyətinə də öz münasibətlərini bildiriblər.

Çıxışlardan sonra təşkilati məsələlərə baxılıb.

Konfransda YAP Zərdab rayon təşkilatının 27 nəfərdən ibarət şurası, 15 nəfərdən ibarət idarə heyəti, 5 nəfərdən ibarət nəzarət-təhftiş qrupunun tərkibi seçilib.

YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova yenidən yekdilliklə rayon təşkilatının sədri seçilib. Konfransda, həmçinin, sədrin müavinlərinin seçilməsi məsələsinə də baxılıb. Vüsalə Kərimova və Ruslan Nemətov rayon təşkilat sədrinin müavinləri seçiliblər.

**NƏZAKƏT**

# Bahar Muradova: "Problemin təkcə ayrı-ayrı elementlərinin deyil, onun özünün həlli ilə sıx məşğul olmaq lazımdır"



Problemin təkcə ayrı-ayrı elementlərinin deyil, onun özünün həlli ilə sıx məşğul olmaq lazımdır. AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclis sədrinin müavini Bahar Muradova ATƏT-in Parlament Assambleyasının iyulun 8-də Minskdə keçirilən 26-cı ənənəvi sessiyasında ümumi müzakirələr zamanı söyləyib. B.Muradova deyib: "Mən bir daha sizin diqqətinizi Ermənistan-Azərbaycan silahlı qüvvələrinin qarşıdurma xəttində Azərbaycanın dinc sakinlərinin, o cümlədən iki yaşlı qızın öldürülməsi ilə nəticələnən son eskalasiyaya cəlb etmək istərdim.

Beynəlxalq hüququ və insan hüquqlarını kobud şəkildə pozan bu hadisə dünya ictimaiyyətinin diqqətindən kənarda qalmayıb. Bu da sevindirici haldır. Minsk Qrupunun həmsədrləri olan ölkələr bu hadisəni pisləyiblər və onu danışıqlar prosesi əleyhinə yönəlmiş təxribat adlandırıblar. ATƏT-in Avstriya nümayəndəliyi, BMT-nin Baş katibi, Avropa Parlamentinin nümayəndələri olan bəzi ölkələrin xarici işlər nazirlikləri, AŞPA, bir sıra deputatlar, ictimai və din xadimləri də bunu pisləyiblər və belə bir hadisənin yolverilməzliyini vurğulayıblar.

Fürsətdən istifadə edərək, hamımızın bölüşdüyü bəşəri dəyərlərin bu şəkildə pozulmasına laqeyd qalmayan hər kəsə təşəkkürümü bildirmək istərdim. Hesab edirəm ki, bizim Parlament Assambleyası da bununla əlaqədar öz prinsipial mövqeyini bildirməlidir. Belə hadisələrin təkrarlanmaması üçün bu, çox vacibdir. Dünya ictimaiyyətinin reaksiyası fonunda Ermənistan tərəfinin bu hadisəyə münasibəti təəssüf doğurmaya bilməz.

Alxanlı kəndində guya Azərbaycan Silahlı Qüvvələrinin atəş nöqtələrinin yerləşməsi və Azərbaycanın öz vətəndaşlarından guya hədəf kimi istifadə etməsi barədə bəyanatlar cəfəngiyatdır və təhlükəli tendensiya olduğunu göstərir. Bu cür dəlillər bizə Xocalı soyqırımı dövründən məlumdur. Məlumat üçün qeyd edim ki, Azərbaycanda akkreditə olunmuş diplomatlar və KİV nümayəndələri atəşə tutulmuş Alxanlı kəndinə gedərək, bu kənddə Azərbaycan ordusunun heç bir atəş nöqtəsinin yerləşmədiyinin şəxsən şahidi olublar. Bu hadisənin Cocuq Mərcanlı kəndində yenidənqurma işlərinin aparıldığı və məcburi köçkünlərin ora qayıtdıqları bir vaxtda baş verməsi göstərir ki, bu provokasiya təsadüfən törədilməyib. Ermənistan məcburi köçkünlərin geri qayıtmasının qarşısını hər vasitə ilə almağa çalışır və cəbhə xəttində yaşayan əhalini doğma yurd-yuvalarından qovmaq məqsədi güdür.

Belə bir vaxtda bütün müvafiq strukturlar məsuliyyət nümayiş etdirməli və regionda onsuz da mürəkkəb olan vəziyyətdə arzuolunmaz inkişafa aparan mümkün provokasiyaları dayandırmaq və problemin təkcə ayrı-ayrı elementlərinin deyil, onun özünün həlli ilə sıx məşğul olmaq üçün münaqişənin dayanıqlı həllinə yönələn səylərini birləşdirməlidirlər".

# Azərbaycanın Pakistandakı səfiri bu ölkənin Waqt Tv televiziya kanalının "Embassy Road" proqramına müsahibə verib



Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin "Waqt Tv" televiziya kanalının "Embassy Road" proqramına müsahibə verib. Səfir Azərbaycan-Pakistan münasibətlərinin ötən dövr ərzində hər iki ölkə rəhbərlərinin diqqət və qayğısı nəticəsində inkişaf etdiyini diqqətə çatdırıb. Diplomat Azərbaycan ilə Pakistan arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, həyata keçirilmiş uğurlu layihələr haqqında tamaşaçılara məlumat verib, əlaqələrin perspektivləri haqqında danışıb. Əli Əlizadə ticarət-iqtisadi, enerji sahələrində əməkdaşlığın artırılması istiqamətində aparılan işlər, Azərbaycanın iştirakı ilə həyata keçirilən qlobal layihələr haqqında danışıb, pakistanlı iş adamlarını Azərbaycanda yaradılmış əlverişli biznes şəraitindən, sənaye və texnoloji parklarının güzəştli imkanlarından yararlanmağa dəvət edib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasəti, təcavüzkar dövlətin təmas xəttindəki təxribatları, Xocalı soyqırımı haqqında məlumat verən səfir ermənilərin Azərbaycanın işğal olunmuş torpaqlarında İslam abidələrini, o cümlədən məscidləri, ziyarətgahları məhv etdiyini və ya təhqirə məruz qoyduğunu diqqətə çatdırıb. Azərbaycanın erməni terrorizmi və ekstremizmindən hələ də əziyyət çəkən bir ölkə olduğunu qeyd edən səfir dünya ölkələrinin, xüsusən İslam ölkələrinin dəstəyinin, münaqişəyə ədalətli yanaşmasının önəmli olduğunu vurğulayıb, Azərbaycan torpaqlarının işğal etməsinə görə Pakistanın Ermənistanı bir dövlət kimi tanımamasının yüksək qiymətləndirildiyini bildirib. Səfir ikitərəfli əlaqələrə və regional məsələlərə dair aparıcının digər suallarını cavablandırıb, Azərbaycan-Pakistan diplomatik münasibətlərinin 25-ci ildönümü ilə bağlı Pakistan xalqına təbriklərini və xoş arzularını çatdırıb.

# Seymur Orucov: Gənclər torpaqlarımızı işğaldan azad etməyə hazırdır



"Ermənistan dünya ölkələrinin, beynəlxalq təşkilatların Azərbaycan torpaqlarını işğaldan azad etmək barədəki tələblərinə məhəl qoymur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində vasitəçilik edən ATƏT-in Minsk Qrupu həmsədrləri isə ötən müddət ərzində problemin ədalətli həllinə nail olmayıb". Bu fikirləri YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov deyib.

S.Orucov bildirib ki, Minsk Qrupu fəaliyyəti dövründə işğalçı Ermənistana qarşı konkret addımlar atmayıb. Onun sözlərinə görə, bir sıra beynəlxalq qurumlar bu məsələdə ikili standartlar nümayiş etdirirlər.

"Ermənistanın indiyə kimi cəzalandırılmaması vəziyyəti dözülməz bir həddə çatdırıb. Ermənistanın cəzalandırılmamasının nəticəsidir ki, işğalçı tərəf qadın və uşaqları qətlə yetirirlər. Bu, bütövlükdə insanlığa qarşı cinayətdir. Beynəlxalq birlik, xüsusilə də ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən Ermənistanın işğalçı və dövlət səviyyəsində Azərbaycana qarşı yeritdiyi terror siyasətinin qarşısı alınmalıdır. Azərbaycan gəncliyi erməni vəhşiliklərini qətiyyətlə pisləyir. Gənclər ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bir əmri ilə silaha sarılıb torpaqlarımızı işğaldan azad etməyə hazırdır"- deyə, YAP Gənclər Birliyinin sədri vurğulayıb.

# XİN: "Ermənistan substantiv danışıqları davam etdirməyə mane olur"

***A**TƏT-in Minsk qrupunun həmsədrləri və bütün beynəlxalq ictimaiyyət substantiv danışıqları davam etdirməyə çağırış etdiyi halda, Ermənistan buna mane olur. Bunu Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın Moldovada keçirilən "Şərq Tərəfdaşlığı" ölkələrinin xarici işlər nazirlərinin iclasında çıxışı zamanı səsləndirdiyi fikirləri şərh edərkən deyib.*

H.Hacıyev bildirib ki, münaqişənin substantiv danışıqlar yolu ilə həlli prosesindən və BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasından boyun qaçıran tərəf məhz Ermənistandır. ATƏT-in Minsk qrupunun həmsədrləri və bütün beynəlxalq ictimaiyyət substantiv danışıqları davam etdirməyə çağırış etdiyi halda, Ermənistan buna mane olur. Ermənistan texniki-köməkçi vasitələrlə danışıqlar prosesinin mahiyyətindən, yəni işğala son qoymaq və işğal olunmuş Azərbaycan ərazilərindən öz qoşunlarının çıxarılmasından yayınmağa çalışır".

Mətbuat xidmətinin rəhbəri əlavə edib: "Ermənistan tərəfi qəsdən və məqsədyönlü şəkildə təmas xətti boyunca sıx şəkildə yaşayan mülki Azərbaycan əhalisini hədəfə alır və bunun nəticəsində 4 iyul tarixində Alxanlı kəndində 2 yaşlı qızcığaz və onun nənəsi həlak olub, daha bir qadın isə yaralanıb. İndi Ermənistan xarici işlər naziri hər hansı mənəvi-etik çərçivələrdən kənar bir şəkildə insanlıq əleyhinə olan bu cinayətə, qəsdən azyaşlı uşağın öldürülməsinə bəraət qazandırır".

XİN rəsmisi bildirib ki, Ermənistanın işğalçı silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu regional sülh və təhlükəsizlik üçün ciddi təhdid mənbəyi olaraq qalmaqda davam edir: "Münaqişənin həllində irəliləyişə nail olmaq və regionda davamlı sülhü təmin etməyin yeganə yolu ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasına dair planının Ermənistan tərəfindən həyata keçirilməsidir".



# Azərbaycan ilə Özbəkistan arasında din sahəsində əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olunub

***İ**yulun 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin sədri Artukbek Yusupov və Özbəkistan Müsəlmanları İdarəsinin sədri müfti Usmonxan Alimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

AZƏRTAC xəbər verir ki, komitə sədri Özbəkistan ilə Azərbaycan arasında tarixi kökləri olan dostluq münasibətlərinə toxunub, ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrindən danışıb. Qeyd edilib ki, ölkələrimiz arasında münasibətlərin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün dövlətimizin başçımız tərəfindən uğurla davam etdirilir.

Torpaqlarımızın 20 faizinin işğal altında olduğunu bildirən M.Qurbanlı iyulun 4-də Füzuli rayonunun Alıxanlı kəndində törədilmiş qanlı hadisə nəticəsində dünya ictimaiyyətinin növbəti dəfə mülki sakinlərə qarşı erməni terrorunun şahidi olduğunu bildirib. Özbəkistanın bütün beynəlxalq təşkilatlarda Azərbaycanın ədalətli mövqeyini və ərazi bütövlüyünü dəstəklədiyini, iki ölkə arasında əlaqələrin hər zaman yüksək səviyyədə olduğunu vurğulayıb.

Çoxkonfessiyalı və çoxmillətli dövlət olan Azərbaycanda dövlətdin münasibətləri, həmçinin dövlətin din sahəsindəki siyasəti, Dövlət Komitəsinin fəaliyyəti barədə geniş məlumat verən Mübariz Qurbanlı Azərbaycanın malik olduğu nümunəvi multikultural və tolerantlıq modelindən söhbət açıb. Qeyd edib ki, Prezident İlham Əliyev tolerantlıq ənənələrini daha da inkişaf etdirərək dövlət siyasətinə çevirib. Sovet hakimiyyəti dövründə 17 məscid olan Azərbaycanda hazırda 2246 məscid var. Təsadüfi deyil ki, Cənubi Qafqazın ən böyük məscidi olan Heydər məscidi Bakıda inşa edilib. 28-i qeyri-İslam olmaqla 757 dini icma və 10 İslam kolleci dövlət qeydiyyatına alınıb.



Mübariz Qurbanlı bildirib ki, ölkəmizdə dinə yüksək səviyyədə dövlət qayğısı var və bu qayğı bütün konfessiyaları əhatə edir. Dövlətin qayğısı ibadət evlərinin təmiri, bərpası və əsaslı şəkildə qurulması, yenilərinin tikilməsi istiqamətində həyata keçirilir. Azərbaycanda dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədi ilə mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən İslam və qeyri-İslam təmayüllü dini qurumlara maliyyə vəsaiti ayrılır.

Ötən ilin ölkəmizdə "Multikulturalizm İli", bu ilin isə "İslam Həmrəyliyi İli" elan olunmasının təsadüfi olmadığına diqqət çəkən Komitə sədri bununla bağlı ölkəmizdə və xaricdə çoxsaylı yerli və beynəlxalq səviyyəli tədbirlərin keçirildiyini deyib. Eyni zamanda, IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsini İslam dünyasını bir araya gətirən, birləşdirən humanitar, siyasi, iqtisadi əlaqələrə təkan verən hadisə kimi qiymətləndirib, İslamda həmrəyliyə böyük ehtiyac olduğunu qeyd edib.

Mübariz Qurbanlı bildirib ki, Dövlət Komitəsi tərəfindən qanun çərçivəsində, iqtisadiyyat sahəsi ilə əlaqəli və ideoloji-təbliğat yolu olmaqla 3 istiqamətdə radikal dini qruplara qarşı mübarizə müəyyən edilib. Bu sahədə Komitə hüquq-mühafizə orqanları və Qafqaz Müsəlmanları İdarəsi, eləcə də digər müvafiq orqanlarla birgə fəaliyyət göstərir. Qanun pozuntusuna yol verildiyi təqdirdə, onların neytrallaşması və qanun qarşısında cavab verməsi istiqamətində ciddi addımlar atılır. O bildirib ki, ideoloji-təbliğat yolu əsl İslami dəyərlərin təşviq və təbliğ edilməsindən, maarifləndirmə işlərinin həyata keçirilməsindən ibarətdir.

Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin sədri Artukbek Yusupov bildirib ki, iki qardaş ölkə arasında əlaqələrin dərin tarixi kökləri var. Azərbaycana ilk dəfə səfər etdiyini diqqətə çatdıran Artukbek Yusupov səfərin Özbəkistanla Azərbaycan arasında din sahəsində əlaqələrin daha da genişlənməsinə böyük təkan verəcəyinə ümidvar olduğunu vurğulayıb.

Qonaq deyib ki, bu gün müsəlman dünyasının mühüm tərkib hissəsi olan Azərbaycan İslam mədəni irsinin yaranması və qorunub saxlanılmasında önəmli məkanlardan biri kimi tanınır. Buna görə də 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesajdır. O, eyni zamanda, bu ilin mayında Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarının təkcə idman yarışı kimi deyil, həmçinin bütün İslam dünyasının birlik, həmrəylik günləri kimi tarixə yazıldığını bildirib.

Dini sahədə gələcəkdə hər iki ölkənin müvafiq qurumları arasında təcrübə mübadiləsinin aparılmasının önəmini vurğulayan Özbəkistan Müsəlmanları İdarəsinin sədri müfti Usmonxan Alimov bildirib ki, Azərbaycanda məzhəblərarası həmrəyliyin nadir nümunəsi mövcuddur. Vurğulanıb ki, hazırda bəzi qüvvələr İslam dininə qarşı düşmən münasibət formalaşdırmağa çalışır. Şübhəsiz ki, İslam dininə münasibətdə bu cür yanaşma əsassızdır və bu, İslam dəyərlərinin yanlış dərk edilməsindən irəli gəlir. Çünki İslam dinini dərk etdikcə onun humanizm, tolerantlıq, xoş rəftar, mərhəmət daşıdığının, yüksək əxlaqi dəyərləri təbliğ etdiyinin şahidi oluruq.

Söhbət zamanı iki ölkənin din siyasətini həyata keçirən qurumları arasında əlaqələrin möhkəmləndirilməsinin vacibliyi və birgə tədbirlərin keçirilməsi, eləcə də qarşılıqlı maraq kəsb edən digər məsələlər barədə müzakirələr aparılıb.

Görüşdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, sədr müavinləri Səyavuş Heydərov, Gündüz İsmayılov, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini müfti Salman Musayev, sədr müavini Rəşad Əlyarlı, Özbəkistanın Azərbaycandakı səfiri Şerzod Fayziyev və digər şəxslər iştirak ediblər.

# DSX-nin Təlim-Tədris Mərkəzinin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş tədbir keçirilib

***Dünən Dövlət Sərhəd Xidmətinin Göytəpə şəhərində yerləşən Təlim-Tədris Mərkəzinin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş təntənəli tədbir keçirilmişdir.***






Dövlət Himni oxunduqdan sonra Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin təbrik teleqramı şəxsi heyətə çatdırılmışdır.

Tədbirdə müstəqil dövlətimizin banisi Ulu Öndər Heydər Əliyevin milli inkişaf konsepsiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin Azərbaycan sərhəd mühafizəsinə ali diqqəti və qayğısı sayəsində şəxsi heyətin xidməti-döyüş şəraitinin, hərbi hissələrin maddi-texniki təminatının və təchizatının ən müasir standartlar səviyyəsinə qaldırıldığı, sərhədlərimizin etibarlı mühafizəsinin təmin edilməsi istiqamətində yüksək nailiyyətlər əldə olunduğu bildirilmişdir. Bu uğurların qazanılmasında Dövlət Sərhəd Xidmətinin Təlim-Tədris Mərkəzinin də xüsusi xidmətləri olduğu qeyd edilmişdir.

Dövlət sərhədlərimizin mühafizəsinin yüksək səviyyədə təmin olunması əhəmiyyətli dərəcədə şəxsi heyətin hazırlığından asılıdır. Fəaliyyət göstərdiyi müddət ərzində hərbi hissə sərhədçi əsgərlərin və müxtəlif ixtisaslar üzrə peşəkar heyətin hazırlanmasında yüksək nəticələr əldə etmişdir. Tədbirdə hərbi hissənin keçdiyi şərəfli inkişaf yolu haqqında ətraflı məlumat verilmiş, Təlm-Tədris Mərkəzində gənc əsgərlərin əsl sərhədçi, ləyaqətli insan kimi formalaşdırılması, Vətənini və onun sərhədlərini sevən, sərhədlərin mühafizəsi üzrə tapşırıqları yerinə yetirməyə qadir hərbi qulluqçular kimi hazırlanması istiqamətində zəngin təcrübə əldə olunduğu qürur hissi ilə vurğulanmışdır.



Tədbirdə xidməti fəaliyyətlərində yüksək nailiyyətlər əldə etmiş bir qrup sərhədçi, həmçinin, hərbi hissənin formalaşmasında və inkişafında xidmətləri olmuş şəxslərə təltiflər təqdim olunmuşdur.

Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestri və incəsənət ustaları sərhədçilər qarşısında maraqlı konsert proqramı ilə çıxış etmişlər.

**RÖVŞƏN**

## Dövlət qulluğuna test imtahanları ilə bağlı dəyişikliklər edilib

Dövlət qulluğuna test imtahanlarının növləri ilə bağlı dəyişikliklər edilib. AZƏRTAC xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin (DİM) hüquqi təminat və insan resursları şöbəsinin müdiri Vüqar Əsgərov iyulun 10-da "Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqində dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi" mövzusunda keçirilən konfransda deyib.



Şöbə müdiri bildirib ki, dövlət qulluğunun test imtahan mərhələlərində açıq tipli və esse tipli testlərdən istifadə olunacaq. V.Əsgərov qeyd edib ki, vakant vəzifənin tutulması barədə qərar vakant vəzifələrin yarandığı gündən bir ay müddətinə verilir. O deyib: "Vakant vəzifə daxili müsahibə nəticəsində tutulmadıqda 30 gün müddətində ümumi müsahibə barədə qərar qəbul edilir. Vakant vəzifə ümumi müsahibə nəticəsində tutulmadıqda müsabiqə keçirilir".

## Məleykə Abbaszadə: "Dövlət qulluğuna qəbulla bağlı yeni test imtahanlarının oktyabrda keçirilməsi nəzərdə tutulur"



Dövlət qulluğuna qəbulla bağlı ilk hüquqi imtahan keçirilməzdən əvvəl sınaqlara və təlim proseslərinə başlanılacaq. Sınaqlar və təlim proseslərinin sentyabrda, dövlət qulluğuna qəbulla bağlı yeni test imtahanlarının isə oktyabrda keçirilməsi nəzərdə tutulur. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib.

M.Abbaszadə bildirib ki, dövlət qulluğuna dair qanunla bağlı ilk dəyişikliklər 2016-cı ilin avqustunda edilib. Bu ilin iyununda da dövlət qulluğu ilə bağlı qanunda 21 dəyişiklik olub. Nəhayət, bu yaxınlarda dövlətimizin başçısının müvafiq Fərmanına əsasən, dövlət qulluğuna qəbulla bağlı müsahibə qaydaları təsdiq olunub. Artıq dövlət qulluğuna qəbulla bağlı bütün normativ-hüquqi sənədlər hazırdır. Bugünkü konfransda tərəfimizdən hazırlanan ilk modellər dövlət nümayəndələrinə təqdim olunur.

## Yaşar Aydəmirov: Azərbaycan Ordusu hər hansı təxribata həmin anda dəqiq cavab verməyə hazırdır



Azərbaycan Silahlı Qüvvələrinin bölmələri bütün cəbhə boyu döyüş hazırlığındadır, əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuz hər hansı təxribata həmin anda dəqiq cavab verməyə hazırdır.

Bu fikri AZƏRTAC-a sabiq hərbi birlik komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov cəbhədə baş verən son hadisələrə münasibət bildirərkən deyib. Y.Aydəmirov bildirib ki, Azərbaycan Silahlı Qüvvələri iyulun 7-də Ermənistan tərəfindən məqsədyönlü şəkildə yenidən planlaşdırılan təxribatın qarşısını, Alxanlı kəndində həlak olan körpə uşağın və onun nənəsinin qisasını aldı. Ermənistan ordusunun döyüşə hazırlıq vəziyyətinə gətirilən qüvvələrinə, xüsusilə də taborun müdafiə rayonunda yerləşən seçilmiş hədəflərinə dəqiq atəş zərbələri vuruldu. Sadəcə Ermənistan tərəfi cürət edərək itkilərini boynuna almır. Onlar yalan iftiralar yaymaqla məşğuldurlar. Ermənilər vəziyyəti gərginləşdirmək üçün ehtiyat hissələrini bir neçə istiqamətdə ön xəttə çəkiblər. Həmin bölmələrə də ordumuz tərəfindən güclü atəş zərbələri vuruldu. Düşmən altı nəfərdən az olmayaraq itki verib. Həmin artilleriya sistemləri ilə atəş zamanı düşmənin digər canlı qüvvə və texnikaları da tələfata uğrayıb. Misal üçün, artilleriya bölməsinin bir topunun mərmisinin qəlpələrinin məhvetmə radiusu 50 metrdir. Həmin mərmilərin qəlpələri 50 metr ətrafa səpələnir və orada heç bir canlı qüvvənin sağ qalması mümkün deyil. Onlarda tələfat həddindən artıq çoxdur. Bunu gizlətməyə çalışsalar da xeyri olmayacaq. Düşmən tərəfi ancaq fotomontajla, yalan videomateriallar yaymaqla məşğuldur. Çünki onlar itkilərini boyunlarına almaq istəmir və vəziyyəti gərginləşdirməkdə davam edirlər.

## Bakı metrosu yay qrafikinə keçib

"Bakı Metropoliteni" QSC iyul ayının 10-dan yay qrafikinə keçib. AZƏRTAC xəbər verir ki, bu barədə "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev deyib. O bildirib ki, qatarlar arasında interval pik saatlarda 2,5 dəqiqə, qalan vaxtlarda, əsasən, 3 dəqiqə olacaq. Yay mövsümünün başlanması Bakı Metropolitenində qatarların hərəkət qrafikində dəyişiklik edilməsi zərurətini yaradır. Çünki tədris



mövsümünün başa çatması, həmçinin paytaxt sakinlərinin yay istirahətini şəhərdən kənarda keçirmələri metropolitendə sərnişin axınının əhəmiyyətli dərəcədə azalmasına səbəb olur. Qeyd edək ki, pik saatlarda hərəkət səhər saat 8-dən 10-a, axşam isə 6-dan 9-un yarısına qədərdir. Yalnız gecə saatlarına yaxın və qeyri-iş günləri hərəkət fərqli intervalla təşkil edilir. Yay qrafiki yeni tədris mövsümünə qədər qüvvədə olacaq.

# Ölkəmizə səfər edən turistlərin sayı ilbəil artır



***Son illər ölkəmizdə turizmin təşviqi ilə bağlı görülən işlər, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi Azərbaycanın turizm ölkəsi kimi dünyada tanıdılmasında böyük rol oynayıb. Azərbaycanda turizm sənayesinin inkişafı istiqamətində atılan addımlar paytaxt Bakıda, eləcə də, bölgələrdə ildən-ilə yüksələn turizm müəssisələrinin fəliyyətini artırıb, həm yerli, həm də xarici turistlərin sayının artmasına səbəb olub.***

Ölkəmizin zəngin turizm potensialı ilə seçilməsi, təbiəti, tarixi abidələri ilə çox zəngin olması da buraya istirahət üçün üz tutan turistlərin sayında ilbəil artımla müşahidə olunur. Bu bölgələrdən biri olan İsmayıllı rayonu ərazisində Girdiman, Ax-Ox və Göyçay çayları, Qalacıq, Çayqovuşan, Brovdal, Müdrüsə kəndlərinin yaxınlığında füsunkar şəlalələr, Qaranohur və digər təbii göllər olduqca valehedicidir. İsmayıllının ərazisində 223 tarix və mədəniyyət abidəsi mövcuddur. Bu abidələrdən olan - Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğu dünya, 32-si ölkə, 127-si isə yerli əhəmiyyətlidir. 70-dən çox tarix və mədəniyyət abidəsi isə yeni aşkar edilib. Bütün bunlar həm yerli, həm də xarici turistlər üçün də maraqlı və cəlbedicidir. Dövlət qayğısı turizm üçün böyük potensialı olan bölgədə bu sahənin inkişafına güclü təkan verib. Burada ekoturizm, mədəni turizm, sağlamlıq turizmi və sair turizm növləri üçün də geniş imkanlar mövcuddur. Azərbaycanın təkcə bir bölgəsi deyil, digər bölgələri də turizm zənginliyi ilə seçilir. Məhz bunun nəticəsidir ki, elə bu ilin yanvar-iyun aylarında İsmayıllı, eləcə də, Qəbələ, Şamaxı və Qobustan rayonlarına, ümumilikdə, 157 min 502 turist səfər edib. Bunlardan 99 min 694-ü yerli, 57 min 808-i isə xarici turistlər olub. Rayonlar üzrə isə ən çox turist Qəbələyə üz tutub. Onların sayı 95 min 480 nəfər olub. Bu müddət ərzində Şamaxını 32 min 230, İsmayıllını 23 min 517, Qobustan rayonunu isə 6 min 275 turist ziyarət edib.

Cari ilin beş ayında Naftalan şəhərinin kurort-sanatoriya və istirahət mərkəzləri 8 min turist qəbul edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1808 nəfər çoxdur. Həm balneoloji neft vannaları əsasında xəstələrin müalicəsində əldə olunan təsirli nəticələr, həm də istirahət üçün şəhərdə yaradılan müasir turizm infrastrukturu Naftalanı turistlər üçün daha cəlbedici kurort mərkəzinə çevirib.

Xarici turistlərin əsas hissəsini isə Türkiyə, Rusiya, Koreya Respublikası, Qazaxıstan və digər MDB, eləcə də, Avropa, Orta Asiya və ərəb ölkələrindən olan turistlər təşkil edib.

*NƏZAKƏT*

# Sankt-Peterburq televiziya kanalında Azərbaycan haqqında ikinci veriliş yayımlanıb




***Azərbaycanın Sankt-Peterburqdakı baş konsulluğunun dəstəyi ilə Rusiyanın şimal paytaxtının "Sankt-Peterburq" televiziya kanalında Azərbaycan haqqında verilişlərin yayımı davam edir. "Azərbaycana aparan yol" layihəsinin ikinci verilişi iyulun 9-da yayımlanıb.***

Sankt-Peterburq televiziya kanalında Azərbaycana həsr olunmuş ikinci verilişdə "Bakı əsrlərin aynasında" ("Baku v zerkale vekov") sənədli filmi nümayiş olunub. "Salnamə" studiyasında çəkilmiş film Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə ərsəyə gəlib. Rusiyalı rejissor Natalya Zavoznenkonun Sergey Şaçinin ssenarisi əsasında çəkdiyi filmdə Azərbaycanın məşhur mədəniyyət və incəsənət xadimləri iştirak edir, tamaşaçılar ölkəmiz, Bakı və Abşeron haqqında məlumatları onların dilindən eşidirlər.

Verilişdə Azərbaycanın qədim tarixi, adət ənənələri, mədəniyyəti, zəngin milli mətbəxi və Azərbaycanın bu günü, Atəşgah məbədi, Qız Qalası, İçərişəhər, Qala divarları haqqında ətraflı məlumat verilib. Milli dəyərlərimizdən söhbət açılan verilişdə diqqətə çatdırılıb ki, UNESCO-nun qeyri-maddi irs siyahısına salınan qiymətli arxeoloji, mədəni, mənəvi örnəklər dünyada Azərbaycanın eşidilən səsinə çevrilib, muğam, xalçaçılıq və aşıq sənəti, Qobustan möcüzələri insanların qəlbini ovsunlayır. Veriliş boyu Azərbaycanda XX əsrin əvvəllərindən başlayaraq inkişaf edən və ölkə iqtisadiyyatında əhəmiyyətli rol oynayan neft sənayesindən də söhbət açılır, Böyük Vətən Müharibəsində faşizm üzərində qələbədə Azərbaycan neftinin həlledici rolu vurğulanıb.

Rusiyalı tamaşaçılara Azərbaycandakı tolerantlıq ənənələrindən danışılıb, ölkəmizdə müxtəlif din nümayəndələrinin dostluq və qardaşlıq şəraitində yaşadığı bildirilib.

Sankt-Peterburq televiziya kanalında Azərbaycana həsr olunmuş verilişdə, həmçinin Bakıda inşa edilmiş qədim binalardan, Ağ şəhərdən, habelə xalq rəssamı Tahir Salahovun İçərişəhərdəki ev muzeyindən söhbət açılıb. Məlumat verilib ki, 2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılış və bayrağın qaldırılma mərasimi baş tutub. Filmdə "Baku Crystal Hall"un inşasından da söhbət açılır. Qeyd olunur ki, sözü gedən məkanda 2012-ci ildə "Eurovision" musiqi yarışması keçirilib. 2015-ci ildə isə "Baku Crystal Hall" idman kompleksi kimi Birinci Avropa Oyunları zamanı müxtəlif yarışları qəbul edib. Bakı qonağını təəccübləndirən və valeh edən, 2007-ci ildə məşhur memar Zaha Hadid tərəfindən inşa edilən Heydər Əliyev Mərkəzi haqqında geniş məlumat da "Bakı əsrlərin aynasında" filmində yer alıb. Alov qüllələrinin Bakının qədimliyinə fərqli müasirlik bəxş etməsi, Bakıya gələn turistlərin buranı Qafqazın Parisi adlandırması da xüsusi vurğulanıb.



# YAP Sumqayıt şəhər təşkilatında seminar-treninq keçirilib

***Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatı üzrə ilk dəfə seçilmiş ərazi ilk partiya təşkilat sədrləri ilə seminar-treninq keçirilib. Seminarı giriş sözü ilə YAP Sumqayıt şəhər təşkilatının təşkilat işlər üzrə sədr müavini, icra aparatının təşkilat şöbəsinin müdiri Vəzirxan Ənsərov açaraq, yeni seçilmiş ərazi ilk partiya təşkilatı sədrlərini təbrik edib, onlara gələcək işlərində uğurlar arzulayıb. V.Ənsərov qarşıda duran vəzifələr haqqında ətraflı söz açaraq bildirib ki, məqsəd hakim partiyanın fəaliyyətinə daha geniş və böyük töhfələr vermək, qarşıda duran vəzifələrin öhdəsindən layiqincə gəlməkdən ibarətdir.***

Seminarda YAP Sumqayıt şəhər təşkilatının təşkilat şöbəsinin təlimatçısı Elbrus Səlimov Yeni Azərbaycan Partiyası sıralarına yeni üzvlərin qəbulu işinin təşkili haqqında məlumat verib. Ümumi protokol-uçot şöbəsinin müdiri Arifə Abdullayeva YAP üzvlərindən üzvlük haqlarının toplanması və təşkilatın hesabına köçürülməsi işinin təşkili haqqında seminar-treninq iştirakçılarına məlumat verib və onları lazımı sənədlərlə tanış edib. Seminar-treninqin sonunda V.Ənsərov Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilat ərazi ilk partiya təşkilatında yığıncaqların keçirilməsinə hazırlıq işləri və yığıncaqların keçirilməsinin təşkili haqqında yığıncaq iştirakçılarını təlimatlandıraraq, verilən sualları cavablandırıb.

*Rövşən NURƏDDİNOĞLU*

# İtaliya mətbuatı Ermənistan ordusunun Alxanlı kəndində törətdiyi vəhşilikdən yazır




***İyulun 4-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində mülki azərbaycanlı əhaliyə qarşı törətdiyi cinayət İtaliya mətbuatında geniş işıqlandırılıb. Ölkənin "Agenzia Nova" xəbər agentliyi mütəmadi olaraq mövzu barədə məlumatlar yayımlayıb. İnformasiyalarda baş vermiş hadisə ilə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Müdafiə Nazirliyinin bəyanatları, İtaliya parlamentində Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri, senator Sercio Divinanın Ermənistan silahlı qüvvələrinin Azərbaycan vətəndaşlarını hədəfə almasını pisləyən açıqlamaları öz əksini tapıb.***

İtaliyanın nüfuzlu KİV-lərindən olan "L'Opinione" qəzetində də Ermənistanın ölkəmizə qarşı yeni təxribatı və nəticədə mülki vətəndaşların qətlə yetirilməsi barədə jurnalist-tədqiqatçı Domeniko Letizianın müəllifi olduğu "Ermənistanın silahlı qüvvələri tərəfindən atılmış minaatan Azərbaycanda mülki şəxsləri qətlə yetirib" adlı məqalədə dərc olunub. Yazıda İtaliya parlamentinin üzvləri deputatlar Kristina Bargero və Xalid Çauki, senatorlar Vito Petroçelli və Sercio Divinanın Ermənistan silahlı qüvvələrinin mülki azərbaycanlı əhaliyə qarşı törətdiyi cinayətləri pisləyən, eləcə də Ermənistanın işğalçı siyasətini qınayan bəyanatlarına yer verilib. "Notizie Geopolitiche" analitik portalında dərc olunmuş "Minaatan iki mülki şəxsin - yaşlı qadının və bir uşağın həyatına son qoyub" başlıqlı məqalədə baş vermiş hadisə ilə bağlı məlumatlar yerləşdirilib.

İtaliyanın iqtidar Demokratik Partiyasının "L'Unita" və "Mondo Democratico" qəzetlərində də müvafiq olaraq "Dağlıq Qarabağ: uzunsürən münaqişənin təhlükəli oyanışı" və "Dağlıq Qarabağ münaqişəsi: 1994-cü ildən bəri bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün öz evlərinə qayıtmağı gözləyir" sərlövhəli məqalələr dərc olunub. Müəllifi Cənubi Qafqaz üzrə tədqiqatçı Daniel Pommier Vinçelli olan hər iki məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başvermə səbəbləri, Ermənistanın Azərbaycana hərbi təcavüzü, mülki əhaliyə qarşı törətdiyi cinayətlər və beynəlxalq ictimaiyyətin mövqeyi ilə bağlı fikirləri yer alır, habelə münaqişəyə beynəlxalq hüquq nöqteyi-nəzərdən qiymət verilir.

Habelə İtaliyanın "İl Roma" gündəlik qəzetinin çap versiyasında jurnalist-tədqiqatçı Domeniko Letizianın "Ermənistanın azərbaycanlı dinc əhaliyə qarşı təcavüzü" başlıqlı məqaləsi dərc olunub. Məqalədə İtaliya parlamentinin müxtəlif partiyalardan olan üzvlərinin - deputatlar Kristina Bargero və Xalid Çauki (Demokratik Partiyası), senatorlar Vito Petroçelli (5 ulduz hərəkatı partiyası), Maria Rizzotti (İrəli İtaliya Partiyası), Sercio Divinanın (Şimal Liqası Partiyası) Ermənistan təxribatını pisləmələri barədə məlumat verilir, eləcə də Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadənin məsələ ilə bağlı açıqlamaları yer alır.

# Ermənistan ordusunun mülki insanları qətlə yetirməsi insanlıq əleyhinə cinayətdir













***Dünyanın müxtəlif məkanlarında yaşayan azərbaycanlılar yaşadıqları ölkələrdə 4 iyul təxribatı ilə bağlı Ermənistanın işğalçılıq və soyqırımı siyasətinə etiraz ifadə edən aksiyalar keçirir, bəyanatlar yayır, baş vermiş hadisədən sarsıldıqlarını, dünya birliyindən bu faciəyə ədalətli qiymət verilməsini gözlədiklərini bildirirlər. Qeyd olunur ki, dinc sakinlərin həlak olması faktlarının təkrarlanması, bir daha göstərir ki, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdə mövcudluğu regionda sülhün təmin olunmasına, münaqişənin danışıqlar masası arxasında həll edilməsinə maneə yaradan başlıca amildir.***

Dünya Azərbaycanlılar Assambleyası və Alman-Azərbaycan Mədəniyyət Evinin təşkilatçılığı ilə Azərbaycanlıların Ermənistanın Almaniyadakı səfirliyi önündə keçirdiyi etiraz aksiyasında iyulun 4-də Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndi əhalisinin və mülki obyektlərinin atəşə tutulması nəticəsində, Sahibə Allahverdiyeva və nəvəsi 2 yaşlı Zəhranın həlak olması insanlığa qarşı cinayət kimi qiymətləndirilib. Soydaşlarımız bu hadisəni Ermənistan dövlətinin təcavüzkar və terrorçu mahiyyətini əks etdirdiyini vurğulayıblar. Soydaşlarımız Azərbaycan dövlətinin ölkənin ərazi bütövlüyünün bərpası yönündə bütün addımlarını dəstəklədiklərini ifadə ediblər. Bildirilib ki, bu hüznlü hadisə bütün dünya azərbaycanlılarının kədər və hiddətinə səbəb olmuşdur.

Daha sonra işğalçı ordunun bu günə qədər dəfələrlə uşaq ölümlərinə səbəbkar olması və yüzlərlə uşağı qətl etməsinə etiraz olaraq, səfirliyin giriş qapısına gəlincik buraxılmışdır. Bu addımın simvolik mənası, həm də ondan ibarətdir ki, bu gün Ermənistan, cinayətkar hakimiyyəti oyuncaqları ilə oynamalı olan körpələri qətlə yetirir.

Piketin sonunda iştirakçılar adından Ermənistan hakimiyyətinə etiraz bəyanatı səfirliyin poçt qutusuna atılıb.

Almaniyanın Hannover şəhərində baş tutan etiraz mitinqində Ermənistanın işğalçılıq siyasətini pisləyən şüarlar səsləndirilib. Aksiyada çıxış edənlər Azərbaycan torpaqlarının işğaldan azad olunmasını, beynəlxalq ictimaiyyətin Ermənistanın təcavüzkar siyasətinə son qoyulması üçün qəti tədbirlər görməsini tələb ediblər.

Türkiyədə fəaliyyət göstərən İstanbul Türkiyə Azərbaycan Dayanışma və Kültür Dərnəyi üzvləri Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndində törətdiyi hərbi təxribatla əlaqədar Zeynəbiyə məscidinin qarşısında toplaşaraq, Yəhya Kamal Mərkəzinə doğru yürüş ediblər. Nümayiş iştirakçıları səsləndirdikləri şüarlarda Ermənistan ordusunun Füzuli rayonunun Alxanlı kəndini 82 və 120 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutması nəticəsində, 1967-ci il təvəllüdlü Quliyeva Sahibə İdris qızı və 2015-ci il təvəllüdlü Quliyeva Zəhra Elnur qızının qətlə yetirilməsini kəskin şəkildə etiraz ediblər.

İSTAD sədri Səfər Qaraqoyunlu çıxışında Ermənistanı və bu qaragüruha dəstək olanları şiddətlə qınadığını bildirib. O, qeyd edib ki, daha böyük faciələrin yaşanmaması üçün Ermənistana qarşı beynəlxalq birlik tərəfindən sanksiyalar tətbiq olunmalıdır. “Türkiyə hər zaman Azərbaycanın yanındadır. Ermənistan bölgədə sülh və sabitliyin bərqərar olmasını istəyirsə, öz ordusunu qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarmalıdır”-deyə diaspor sədri bildirib.

Qeyd edək ki, yürüşü Türkiyənin bir sıra kütləvi informasiya vasitələri işıqlandırıb.

BMT-nin mənzil-qərargahı qarşısında keçirilən etiraz aksiyasında da iştirakçılar Ermənistanın işğalçı ölkə olduğunu əks etdirən, habelə, azyaşlı Z.Quliyevanın cəsədinin mediada yayılmış fotoşəkillərdən ibarət transparantları ətrafda yığılan əcnəbi diplomatlara nümayiş etdirilib, “Mən Zəhrayam!”, “Zəhraya ədalət!”, “Erməni terrorunu qınayın”, “Ermənistan uşaq qatilidir!”, “Ermənistan soyqırımı günahkarıdır!” şüarlarını səsləndiriblər. Aksiyada hadisə ilə bağlı əcnəbilərə bukletlər paylanılıb, ətraflı məlumat verilib və çıxışlar edilib.

Niderlandda fəaliyyət göstərən diaspor təşkilatları isə beynəlxalq qurumlara etiraz məktubları göndəriblər. Niderland Krallığında fəaliyyət göstərən “Ana Vətən” Avropa Azəbaycanlı Qadınlar Birliyi və “Odlar yurdu” Cəmiyyəti Azərbaycan torpaqlarını işğal etmiş Ermənistan silahlı qüvvələrinin növbəti təxribatını pisləyən bəyanat yayıblar. Bəyanatda bu faciənin Azərbaycan torpaqlarının işğal altında saxlanılmasının region üçün nə qədər ciddi təhlükə olması, eyni zamanda, Ermənistan dövlətinin terrorçu mahiyyətini bir daha açması vurğulanır. Niderlanddakı soydaşlarımız dünya ictimaiyyətini atəşkəs dövründə baş verən təxribatlara, hücumlara və dinc əhalinin qətlə yetirilməsinə lazımi reaksiya verməyə, bütün bu ədalətsizliklərə biganə qalmamağa çağırıb. Bəyanat BMT-yə, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə, Avropa Parlamentinə, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına və Avropa Şurası Parlament Assambleyasına göndərilib.

Qırğızıstandakı Azərbaycan diaspor təşkilatları da beynəlxalq təşkilatlara müraciət ünvanlayıb. Bişkekdə fəaliyyət göstərən Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu və “Xəzər” İssık Kul Azərbaycanlıları İctimai Birliyi Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndində törətdiyi təxribatla əlaqədar keçirdiyi tədbirdə beynəlxalq təşkilatlara və dünyanın aparıcı dövlətlərinin liderlərinə müraciət ünvanlayıblar.

Təşkil olunan aksiyalarda, yayılan bəyanatlarda Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndində törətdiyi təxribatı qətiyyətlə pislənir, beynəlxalq təşkilatlar, o cümlədən, BMT, Avropa İttifaqı, Avropa Şurası, ATƏT-in Minsk Qrupu, İslam Əməkdaşlıq Təşkilatı və dünyanın aparıcı dövlətlərinin liderləri, mülki şəxsləri, məsum körpələri, qadın və qocaları hədəf seçən bu terror və vandalizm cinayətini törədənlərin tezliklə cəzalandırılması istiqamətində səylərini birləşdirməyə çağırılırlar.

**ZÜMRÜD**

***Rusiyanın dövlət başçısı Vladimir Putin iyun ayının sonlarında “Türk axını” layihəsinin reallaşmasının növbəti mərhələsinin startını verdi. O, Anapada gəmidə düyməni basaraq “irəli” dedi. Bu, “Türk axını” layihəsinin dənizin dibi ilə çəkilişinin başlaması deməkdir. Mütəxəssislər hesab edirlər ki, bu proses uğurla başa çatacaq. Çünki indi texnologiya o dərəcədə inkişaf edib ki, bu kimi işləri sürətlə görmək çətin deyil. Özü də bu kəmər ekoloji olaraq tam zərərsizdir. Rusiya boru xəttini Türkiyə sahillərinə qədər çəkəcək. Sonrasını türk tərəfi həyata keçirməlidir. Ekspertlərin fikrinə görə, bu hadisənin geosiyasi əhəmiyyəti az deyil. Yəni o, yalnız enerji məsələsi ilə məhdudlaşmır. Bir tərəfdən, Yaxın Şərqdəki geosiyasi dinamikaya, digər tərəfdən isə Avropanın enerji ilə təminatına ciddi təsiri ola bilən faktordur. Burada Amerikanın mümkün reaksiyasını və cavab addımlarını da nəzərə almaq lazımdır. Bütün bunlar “Türk axını” layihəsinin Qərbin enerji təhlükəsizliyinin təminində vacib rol oynaya bilməsi ilə yanaşı, müəyyən geosiyasi riskləri də meydana çıxardığını göstərir.***



# “Türk axını”: Avropanın enerji təhlükəsizliyi və geosiyasi maraqlar kontekstində

## “İrəli”: Moskva-Ankara münasibətləri yüksələn xətdə

Rusiya-Türkiyə münasibətlərinin inkişaf tempi çoxalır. Son aylarda bu, daha çox hiss edilir. İki böyük dövlət Suriya məsələsində əməkdaşlığı genişləndirməklə yanaşı, ticarət, iqtisadiyyat və enerji sferalarında da əlaqələri dərinləşdirirlər. Bu prosesdə “Türk axını” adlanan qaz kəməri layihəsinin reallaşması xüsusi yer tutur. İyun ayında Prezident Vladimir Putin qaz kəmərinin dayaz və dərin hissələrinin birləşməsi ilə əlaqədar Rəcəb Tayyib Ərdoğana telefon edib. Bu, Rusiyanın Qara dəniz sahillərindəki gəmidə V.Putinin start düyməsini basmasından sonra olub. Prezidentlər layihənin uğurla reallaşması ilə bağlı bir-birlərini təbrik ediblər. Rusiyanın dövlət başçısı bu işdə Türkiyə Prezidentinin oynadığı xüsusi rolu ayrıca qeyd edib.

Ekspertlər bu hadisəni adi qarşılıqlı təbrik kimi təqdim etmirlər. Onlar iki dövlət arasında əməkdaşlığın məzmunca yeni səviyyəyə yüksəlməkdə olduğunu vurğulayırlar. Bu sırada Türkiyə ilə Rusiya arasında hərbi sahədəki əlaqələrin inkişaf etməsi diqqəti daha çox çəkir. Çünki Türkiyə bir NATO üzvü kimi, bu təşkilatın rəqibi sayılan Rusiyadan yeni silahlar alır.

Onların sırasında məşhur S-400 raketdənmüdafiə sistemləri də vardır. Bu barədə son olaraq Prezident V.Putinin hərbi və müdafiə məsələləri üzrə köməkçisi V.Kojin informasiya verib (bax: Putin’in yardımcısı: S-400 için Türkiye’yle anlaştık! / “Habertürk”, 29 iyun 2017). O, tərəflərin prinsipial olaraq razılaşdığını, ancaq ödənişlə bağlı müzakirələrin davam etdiyini bildirib.

“Türk axını” layihəsi fonunda bu, ciddi əməkdaşlıq faktoru təsiri bağışlayır. Məsələ ondan ibarətdir ki, sözügedən qaz layihəsi Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynaya bilər. Bu barədə Avropa İttifaqının rəsmi qurumları da fikir bildirirlər. Onu deyək ki, “Türk axını” layihəsi məlum Rusiya qırıcısı hadisəsindən sonra bir qədər əvvəl kənara qoyulmuşdu. Ancaq iki ölkə arasında münasibətlər normallaşmağa başlayanda onu dərhal bərpa etdilər. İndi isə konkret addımlar atılır.

Aİ isə bu layihənin reallaşmasına elə də razı deyil. Onun etirazları Rusiyanın müəyyən şərtləri yerinə yetirmək istəməməsi ilə bağlıdır. Aİ tələb edir ki, “Türk axını” kəməri keçən bütün Avropa ölkələrində marşruta nəzarət tam olaraq yerli ölkədə olsun. İndi Moskva bu şərtə əməl edir. “Qazprom” hətta Türkiyədəki payını satmağa başlayıb. Belə hiss olunur ki, Rusiyanın enerji nəhəngi layihə iştirakçıları olan ölkələrin enerji infrastrukturuna nəzarət etmək arzusundan vaz keçməkdədir.

Buna qarşılıq olaraq Moskva Cənubi və Cənub-Şərqi Avropa ölkələrinə böyük miqdarda qaz satmağı planlaşdırır. Rusiya bunu məhz “Türk axını”nın ikinci xətti vasitəsilə etməlidir. Məsələ beledir ki, indi startı verilən qaz kəməri xətti ancaq Türkiyənin tələbatını ödəmək üçündür. İkinci xətt isə Avropa ölkələrinə qaz nəql etmək üçün çəkilməlidir. Əgər Rusiya bunun razılığını ala bilsə, “Türk axını” Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynaya biləcək.

## Geosiyasi reallıq: mübarizə meydanında yeni risklər

Türkiyə üçün də bunun müsbət tərəfləri çoxdur. Məsələ ondan ibarətdir ki, 2020-ci ilə kimi Azərbaycan, Yaxın Şərq ölkələri və Rusiyadan enerji marşrutları Türkiyədə cəmləşməlidir. Buraya Mərkəzi Asiya, İran və İsraildən daşınan enerji də daxildir. Deməli, faktiki olaraq cəmi bir neçə ilə Türkiyə dünyanın nəhəng enerji marşrutlarının keçidiyi tranzit ölkəyə çevriləcək. Təbii ki, Rusiya bu prosesdən kənarda qalmaq istəməz. Eyni zamanda, Avropa özünün enerji ilə təchizatında əlverişli rol oynayan bir dövlətlə münasibətləri pozmağı arzulamaz.

Bu kimi məqamlar avtomatik olaraq “Türk axını” da daxil olmaqla Rusiya ilə Türkiyənin birgə iştirakını nəzərdə tutan layihələrin Avropanın enerji təhlükəsizliyində rol oynaya biləcəyi qənaətini təsdiqləyir. Buradan isə Avropa-Rusiya münasibətlərinin müsbətə doğru dəyişməsi ehtimalından danışmaq olar.

Maraqlıdır ki, bu proses Rusiya-ABŞ münasibətlərinin daha da kəskinləşməsi fonunda baş verir. Görünür, Avropa İttifaqı artıq tamamilə Amerikanın nəzarətində olmaq istəmir. Bu barədə Angela Merkel Vaşinqtona səfərindən sonra fikir bildirmişdi. İndiki proseslər isə məsələnin həqiqətən ciddi olduğuna dəlalət edir.

Lakin burada Rusiya və Türkiyənin qarşısında ciddi bir əngəl vardır. Biz, Suriya məsələsini nəzərdə tuturuq. Hələlik Moskva və Ankara atəşkəsin saxlanmasında və nəzarət zonalarını müəyyənləşdirməkdə əməkdaşlıq edirlər. Müəyyən nəticələr də artıq vardır. Bununla yanaşı, iki faktoru unutmaq olmaz. Birincisi, Rusiya ilə yaxın əlaqələri olan İranın hansı məqsədlər güddüyü nəzərə alınmalıdır. İkincisi, Amerika başda olmaqla Qərb koalisiyası Rusiya ilə Türkiyənin Suriyada üstünlüyü ələ almasına loyal qala bilməz.

Bu iki istiqamətdən mənfi təsirlər olacaqdır. O cümlədən İran və Amerika Suriyadan keçməklə əməkdaşlıq marşrutları formalaşdırmaqda qərarlıdırlar. Bu da enerji layihələrində vəziyyətin dəyişə biləcəyini göstərir. İndi faktiki olaraq İŞİD-in nəzarət etdiyi enerji qaynaqları əlindən çıxıb. Yaranmış boşluğu kimin dolduracağı məsələsi açıqdır.

Prezident Rəcəb Tayyib Ərdoğanın Rakka və Münbicə daxil olmağa hazır olmaları ilə bağlı verdiyi bəyanata bu kontekstdə baxdıqda vəziyyətin xeyli mürəkkəb olduğu qənaətini əldə edə bilərik. Türkiyə yeni hərbi əməliyyatlar keçirməklə rəqiblərini Suriyada geniş manevr imkanlarından məhrum etmiş olur. Ankaranın daha geniş məkanlarda varlığını göstərməsi şübhəsiz ki, ciddi geosiyasi nəticələri olan hadisədir.

Bunlar onu göstərir ki, “Türk axını” yalnız enerji faktoru ilə məhdudlaşmayan layihədir. Onun geosiyasi və hərbi təsirləri də mövcuddur. Bu layihənin təhlükəsizliyi üçün Rusiya Türkiyəyə silah satışını gücləndirə bilər. Eyni zamanda, Ankaranın Suriyadakı maraqlarına əngəl törətmək istəməz. Türkiyə də öz növbəsində Rusiyanın Yaxın Şərqdə nüfuzunu artırması qarşısında dayanmaz.

Yuxarıda vurğulanan məqamlar bir sıra maraqlı nəticələr əldə etməyə imkan yaradır. Hər şeydən əvvəl, gözləmək olar ki, Rusiya-Türkiyə yaxınlaşması davam edəcək. Bu iki ölkə geniş bir geosiyasi məkanda birgə addımlamaqla xeyli uğurlar əldə edə bilərlər. Şübhəsiz ki, hər iki ölkə başçıları bu istiqamətdə səylərini artıra bilərlər.

Bununla yanaşı, Qərb Yaxın Şərqdə gərginliyi daha da artıra bilər. Çünki Rusiya-Türkiyə yaxınlaşması onlar üçün ciddi geosiyasi nəticələr verər. Artıq Vaşinqtonda kürd qrupları ilə əməkdaşlığı məcburiyyətdən etdikləri barədə danışırlar və bunu keçici sayırlar. Bu barədə ABŞ-ın müdafiə naziri türkiyəli həmkarına bildirib. Eyni zamanda, Amerikanın dövlət katibi Türkiyə ilə Rusiyanın əməkdaşlığı inkişaf etdirmələrini özləri üçün təhlükə hesab etdiyindən danışıb.

Deməli, artıq siyasi səviyyədə reaksiya vardır. Ekspertlər hesab edirlər ki, rəsmi Vaşinqton hazırda açıq mətnlə əvvəllər gizli etdiklərini bəyan edir. Yəni bu o deməkdir ki, amerikalılar Ankara ilə Moskvanın arasını vurmaq planlarından imtina etməyə bilərlər.

Beləliklə, bir tərəfdə Avropanın enerji təhlükəsizliyi üçün faydalı ola bilən nəhəng layihə mövcuddur, digər tərəfdə isə öz geosiyasi maraqları üçün istənilən addımı atmağa hazır olan Qərbin böyük dövlətlərinin planları vardır. Bunların fonunda “Türk axını” layihəsinin reallaşması ciddi hadisədir. Yuxarıda qeyd edilən tendensiyalardan hansının üstün gələcəyini zaman göstərəcək. Ancaq reallıq ondan ibarətdir ki, Rusiya daha təmkinli və təsirli addımlar atır.

**Newtimes.az**

# Böyük müharibə Ermənistanın astanasındadır

## *İşğalçı ölkənin ictimai-siyasi dairələri dalana dirəndiklərini necə etiraf edirlər?*





***Son günlər Ermənistanda əsən müharibə yeli, ilk növbədə, belə qənaətə gəlməyə əsas verir ki, işğalçı ölkənin, bütün ictimai-siyasi dairələri bu faktordan ciddi şəkildə təlaş keçirir və bu məsələdə, xüsusilə, Rusiya tərəf günahlandırılır. Belə ki, Ermənistanın Rusiya amilindən imtina edərək, Avropaya və Qərbə tərəf üz tutmaq istəyinin, getdikcə daha çox qabardılması da, bu ölkənin dalana dirənməsindən xəbər verir. Politoloqlar, hərbi ekspertlər, eləcə də, bir çox ictimai-siyasi təşkilatlar Avropa İttifaqı və NATO-ya inteqrasiyadan danışmağa başlayıblar.***

## Stepan Qriqoryan ölkəsinin NATO ilə əməkdaşlığının baş tutmayacağı təqdirdə, Azərbaycanın böyük müharibəyə başlaya biləcəyini açıq-aşkar etiraf edib

Bu arada, Ermənistanın qloballaşma və regional araşdırmalar mərkəzinin rəhbəri Stepan Qriqoryan da, hesab edir ki, Ermənistanın NATO ilə əməkdaşlığı baş tutarsa, bu əməkdaşlıq hər hansı bir digər ölkəyə qarşı olmayacaq. Halbuki Ermənistan, bu alyans da daxil olmaqla, bir sıra Qərb təşkilatları tərəfindən işğalçı ölkə kimi tanınmaqdadır. Buna baxmayaraq, erməni politoloqları işğalçılıq faktını kənara qoyaraq, ölkələrinin siyasi çöküşünün qarşısını almaq üçün reallaşması mümkün görünməyən ideyalarla çıxış edirlər. SİA “1in.am” saytına istinadən xəbər verir ki, Stepan Qriqoryan bunu hazırda Rusiya ilə əməkdaşlıq prinsipi ilə əlaqələndirib. Daha dəqiqi, erməni ekspert bu məsələdə guya heç bir başqa ölkəyə təcavüz etmək planlarının olmadığını demək istəyib. “Əgər Rusiya ilə reallaşdırılan birgə proqramlara nəzər salarsaq, bizim belə marağımız yoxdur”-deyə qeyd edən Qriqoryan, hətta Şimal qonşusunun ölkəsi ilə birgə əməkdaşlıq məsələsində əsas oyunçu olduğunu etiraf etsə belə, guya bir sıra hallarda, “ermənilərin şəxsi maraqlarının” da olduğunu, eləcə də, bu “maraqları” reallaşdırdığını deyib.

Beləliklə, NATO ilə əməkdaşlığın reallaşdırılacağı halda, Ermənistanın bu hərbi alyansla da eyni siyasət yürüdəcəyini iddia edən Stepan Qriqoryan ölkəsinin NATO ilə əməkdaşlığının baş tutmayacağı təqdirdə, Azərbaycanın böyük müharibəyə başlaya biləcəyini açıq-aşkar etiraf edib. Lakin burada digər bir amil nəzərə çarpır ki, Ermənistanın NATO ilə əməkdaşlıq istəyi Azərbaycana qarşı sırf işğalçılıq siyasətini davam etdirmək məqsədini güdür. Bu səbəbdən, onun daha öncə “əməkdaşlığımız başqa ölkələrə qarşı olmayacaq” fikirləri, əlbəttə ki, sonrakı fikirləri ilə qətiyyən üst-üstə düşmür. Başqa tərəfdən, NATO-nun böyük avtoritetə malik olduğunu deyən Qriqoryan bildirib ki, bu təşkilat onları (erməniləri-red.) silah gücünə müdafiə etməsə də, siyasi bəyanatları ilə müdafiə edə bilər.

Göründüyü kimi, erməni politoloqu NATO-nun sülh yaratmaq, ya da sülhü müdafiə etmək siyasətindən sui-istifadə şəklində yararlanmalı olduğunu deyərək, bununla da, Ermənistanın təcavüzkar siyasi baxışlarını müdafiə edəcəyini düşünür.

## Analitik yazar Sarqis Artsruri isə müharibə riskinin böyük olması ilə yanaşı, Ermənistanın məğlubiyyətə uğramaq ərəfəsində olduğu qənaətindədir

Adıçəkilən saytın analitik bölməsində də Ermənistanda müharibə qorxusunun tüğyan etməsi göz qabağındadır. Sarqis Artsruni müəllifi olduğu analitik şərhdə bildirilir ki, ötən həftə təmas xəttində dramatik hadisələrlə yadda qaldı. “Nə qədər çətin olsa belə, etiraf etməliyik ki, yeni müharibə artıq bizim astanamızda dayanıb və hələ ki, bu müharibənini qarşısını ala biləcək nə daxili, nə də xarici faktorlar görünmür”-deyə analitik qeyd edir.

Sarqis Artsruni öz yazısında bildirir ki, müharibənin Ermənistana yaxınlaşmasında günah Serj Sarkisyan hakimiyyətidir. SİTAT: “Biz, avtoritarizm demokratiyanı əzərkən, müharibəyə daha da yaxınlaşdıq, biz, vətəndaşları oliqarxın və onun yoğunlayan qoçularının nökərinə çevirdiyi vaxt, Ermənistan Rusiyanın vassalına çevrildiyi vaxt müharibəyə daha da yaxınlaşdıq”. Erməni müəllif sonda yazır ki, müharibə riski böyükdür və Ermənistan məğlubiyyətə uğramaq ərəfəsindədir. Beləliklə, bu kimi bənzər fikirlərin düşmən ölkədə yer alması, eləcə də, artması bir faktı kifayət qədər sübuta yetirmiş olur.

***Rövşən NURƏDDİNOĞLU***

## NHK telekanalı: Rusiya Prezidenti Yaponiya ilə ərazi mübahisəsini həll etmək niyyətindədir



Rusiya Prezidenti Vladimir Putin Yaponiyanın keçmiş Baş naziri Yoşiro Moriyə bildirib ki, o, Yaponiya ilə ərazi mübahisəsini həll etməyi çox arzulayır. NHK telekanalının yaydığı məlumata görə, iyulun 9-da Rusiyanın Yekaterinburq şəhərində Beynəlxalq Sənaye Sərgisindən sonra, axşam yeməyi zamanı V.Putin və Y.Mori müxtəlif məsələləri müzakirə ediblər. Görüşdən sonra Y.Mori jurnalistlərə bildirib ki, o, V.Putindən Rusiyanın nəzarəti altında olan mübahisəli adalarla bağlı məsələnin həllinin və sülh müqaviləsinin imzlanmasının sürətləndirilməsini xahiş edib. Y.Mori əlavə edib ki, Rusiya Prezidenti Yaponiyanın Baş naziri Ş.Abeni səmimi insan kimi xarakterizə edib və onunla birlikdə iki ölkə arasında müxtəlif məsələlərin həllinin mümkün olduğunu deyib. Eyni zamanda, V.Putin bildirib ki, adaların keçmiş yapon sakinlərinin sentyabr ayında həmin əraziləri hava nəqliyyatı ilə ziyarət edə bilməsi üçün ondan asılı olan hər bir şeyi edəcək.



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Bəlkə, Müsavatı da Ərdoğan idarə eləsin?

***Aradabir ənənəvi müxalifət partiya sədrlərinin heç bir məntiqi əsası olmayan fikirlərlə “bəyanatlar” verməsi əslində, bir daha sübut edir ki, bunların meydan təfəkkürləri dəyişməyib. Hələ milli azadlıq mücadiləsi dövrlərində - 80-ci illərin axırlarında və 90-cı illərin əvvəllərində müxtəlif xarici kəşfiyyatların torlarına düşərək, ortaya çıxan bu meydançaların o vaxtlar ictimailəşdirməyə çalışdıqları şüarları bu gün də yadımdadır. Məsələn, o vaxtlar belə bir fikir ortaya atmışdılar ki, “İranın Azərbaycan ostanlıqları qiyama qalxıb Azərbaycana birləşsin, sonra da Azərbaycan Türkiyəyə birləşsin” (?). Halbuki, mitinqlərdə İranın bayraqları da dalğalandırılırdı. Yaxud “Türkiyə Ermənistana ordu yeritsin”... (?). Hələ bu harasıdır ki? AXC-Müsavat hakimiyyəti zamanı prezident olmuş Əbülfəz Elçibəy Türkiyəyə etdiyi rəsmi (!) səfərində bəyan etmişdi ki, “yaxın vaxtlarda Türkiyənin bayrağı Çində dalğalanacaq” (???!!!). Nəticədə, Çin Türkiyəyə nota göndərmişdi ki, həmin ölkədə belə bəyanatların səsləndirilməsi yolverilməzdir. Bu cür şüar və bəyanatların sayı çoxdur və zaman keçdikcə, dünyanın siyasi abhavası dəyişdikcə, geopolitoloji fikirlər müasirləşdikcə, onlar daha da köhnəlir və tarixin arxivində özünə yer tapırlar.***

Bu günlərdə Müsavat partiyasının başqanı Arif Hacılının məntiqsiz çağırışı sən demə həmin fikirlərin heç də arxivə gömülmədiyini göstərir. Yuxarıda da, qeyd etdiyim kimi, bunların meydan təfəkküründən kənara çıxa bilməmələri necədirsə, elə də qalmaqdadır. Yəqin ki, bir çoxları A.Hacılının öz feysbuk səhifəsində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı Dağlıq Qarabağı işğaldan azad etmək üçün türk ordusuna əmr verməyə çağırışını oxudu. Mən də oxudum və növbəti dəfə əmin oldum ki, bu adamlardan, necə ki, əvvəllər dövlət adamı çıxmadığı kimi, elə indi də, sonrakı illərdə də çıxmayacaq! Sən illərdir ki, müxalifətin “anası” olan bir partiyanın rəhbəri olduğunu iddia edəsən, hakimiyyətə yiyələnmək üçün siyasi mübarizə apardığını deyəsən, axırda da bir ölkənin siyasi təşkilatı adından digər bir ölkəyə ağız açasan ki, gəl mənim yerimə torpaqlarımı düşməndən azad et! Nə qədər məntiqsiz və sərsəm bir bəyanatdır! Allah eləməmiş, A.Hacılı hakimiyyətdə olsaydı, görün hansı həngamələrdən çıxmış olardı..!

Beləliklə, A.Hacılının bu çağırışı, nəinki rəqib düşərgədə, hətta müsavatçılar arasında da istehza doğurub. Partiya sədrinin başqa bir ölkənin prezidentindən əmr verməyi istəməsi qeyri-ciddi qarşılanıb. Bununla yanaşı, Müsavat başqanının gülünc bəyanatının özbaşına vermədiyini də iddia etmək olar. Yəni o, bu sərsəm fikirlərini işlətməmişdən öncə, heç də özündən fərqlənməyən sabiq başqan, yaxud Müsavatı A.Hacılının arxasından idarə edən İsa Qəmbər vasitəsi ilə hazırlayıb. Bu isə, bir daha təsdiq edir ki, qozbeli qəbir düzəltmədiyi kimi, onları da müasir dünya siyasəti düzlətməyəcək. Özlərini daim xalqdan təcrid edən, xalqı yalnız şəxsi ambisiyaları, maraqları üçün seçən, mitinq və piketlərinin rüsvayçı sonundan sonra yenə də özlərini deyil, məhz xalqı günahkar çıxaran bu ünsürlərin inkişaf, dərketmə səviyyələri elə 90-cı illərdə ilişib qalıb. Həm də o qədər xarici kəşfiyyatlara işləyiblər ki, indi də bənzər fikirləri ilə hansısa xarici təşkilatlar qarşısında xal toplayacaqlarını sanırlar.

Ancaq əsl reallıq, gerçəklik budur ki, Azərbaycan öz torpaqlarını şanlı silahlı qüvvələri ilə azad edəcək! Düzdür, Türkiyə də daxil olmaqla, Azərbaycan bir çox ölkələrlə hərbi əməkdaşlıq edir, silahlar alır, ordu potensialını daha da gücləndirir. Amma bu, o demək deyil ki, həmin ölkələr gəlib bizim yerimizə işğal olunmuş ərazilərimizi düşməndən azad edəcək. Bax, həqiqət də budur ki, A.Hacılı və onun kimi düşünənlər heç vaxt əsl həqiqəti dərk etməyiblər. Çünki həqiqəti dərk etmək üçün normal düşüncəyə sahib olmaq gərəkdir. Bu amil isə, göründüyü kimi, belə ünsürlərdə olmayıb və olmayacaq da. Ona görə də, Allah A.Hacılıya və onun kimi düşünənlərə normal ağıl versin...

***P.S. Hə, unutmuşdum az qala, deyirəm, ay Arif bəy, bəlkə cənab Ərdoğandan xahiş edəsən ki, Müsavatı da o idarə eləsin?***

# Müxalifət fəaliyyətsiz durumdadır

## Mais Səfərli: "15 ilə yaxındır ki, Qərb dövlətlərindən və ABŞ-dan Azərbaycana gələn nümayəndə heyətləri müxalifət liderləri ilə görüşmürlər"

***Son günlər siyasi arenada diqqətçəkən maraqlı məqamlardan biri də, Müsavat başqanı Arif Hacılının yuyulmamış çömçə kimi özünü ortaya atıb, müxtəlif bəyanatlar səsləndirməsi, populist çağırışlarla çıxış etməsidir. Bu amil, onu göstərir ki, A.Hacılı Gürcüstanda təşkil olunmuş müəyyən qrupların toplantısından xüsusi tapşırıqlarla gəlib.***

A.Hacılı məsuliyyətsiz açıqlamalarının birində deyir ki, Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğan Türkiyə ordusunun Dağlıq Qarabağa yeridilməsi barədə əmr verməlidir. Amma özünü siyasətçi hesab edən bu zat hələ də dərk etmir ki, Türkiyənin, bizə nə qədər yaxın olsa da, əvəzimizə işğal altında olan ərazilərimizdə döyüşməsi nə mənəvi, nə də beynəlxalq hüquq prinsipləri baxımından mümkün deyil. Bu missiyanı yalnız və yalnız Azərbaycan Ordusu həyata keçirməlidir ki, bunu da yaxın vaxtlarda yerinə yetirəcək.

"Yurddaş" Partiyasının sədri Mais Səfərli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, özünə hörmət edən və cəmiyyətdə böyük gücə, sosial bazaya malik siyasi təşkilatların fəaliyyəti yalnız bəyanat verməklə və digər hadisəyə münasibət bildirməkdən ibarət deyil: "Siyasi partiyalar hər an fəaliyyətdə olmalıdırlar. Yəni partiyadaxili və təşkilati məsələlərlə məşğul olmalıdırlar. Amma



Azərbaycanın dağıdıcı müxalifət partiyalarının əsas vəzifəsi nədir? İqtidarın gördüyü işlərə kölgə salmaq, qara ləkə salmaq və reallığı özündə əks etdirməyən məsələlərlə bağlı bəyanatlar vermək. Bu, sadəcə olaraq, belə bir fikir bildirməyə əsas verir ki, deməli, müxalifət partiyalarının məşğul ola biləcəyi başqa bir fəaliyyət sferası yoxdur".

M.Səfərlinin sözlərinə görə, müxalif partiya sədrləri nə partiyadaxili işlərlə məşğul ola bilirlər, nə də təşkilatlarında yenidənqurma işləri apara bilirlər: "Ona görə də, ölkədə keçirilən bütün seçkiləri uduza-uduza gəlirlər. Siyasi partiyanın fəaliyyəti yalnız iqtidarın fəaliyyətinə qara yaxmaqdan ibarət olmamalıdır. Partiya quruculuğu işləri aparılmalı və öz partiyalarında demokratizmi təmin etməlidirlər. Lakin müxalifət vacib prinsiplərdən uzaqdır. Onlar, sadəcə olaraq, suyun üzərində qalmaq üçün saman çöpündən yapışan insan təəssüratı yaradırlar".

"Fakt budur ki, müxalifət fəaliyyətsiz durumdadır. Xarici qüvvələrin maddi və mənəvi yardımı da bir nəticə vermir. Bu halda, onların fəaliyyət göstərməyinə nə dərəcədə lüzum ola bilər" sualını cavablandıran partiya sədri bildirdi ki, artıq 15 ilə yaxındır ki, Qərb dövlətlərindən və ABŞ-dan Azərbaycana gələn nümayəndə heyətləri müxalifət liderləri ilə görüşmürlər: "Görün, bu radikal müxalifət düşərgəsində təmsil olunan partiyalar nə dərəcədə fəaliyyətsiz və miskin bir vəziyyətdədirlər ki, onlarla heç kəs görüşmək istəmir. Artıq həmin ölkələr üçün müxalifətin fikirləri önəmsizdir. Onların bu günə düşmələrinin səbəbini müxalifətin öz içində axtarmaq lazımdır".

"Əli Kərimlini, Arif Hacılını və digərlərini yeni nəfəs, yeni şəxs əvəz etsə, müxalifət düşərgəsində nə isə bir canlanma yarana bilərmi" sualını cavablandıran M.Səfərli bildirdi ki, köklü islahatlar olmasa, müxalifət düşərgəsində təmsil olunan partiyalar formalaşmayacaq: "Bir baxın, Müsavat partiyasında başqan dəyişikliyi oldu. Bu dəyişiklik həmin partiyaya nə verdi? İndi isə Arif Hacılı səhnədən getsə və onun yerinə başqa birisi gəlsə, yenə də dəyişiklik bu partiyaya heç nə verməyəcək. Əgər müxalifət partiyalarında islahatlar aparılmırsa, orda heç bir irəliləyişdən söhbət gedə bilməz".

**GÜLYANƏ**



## Yeldən qoz umanlar

**SAMİR**

***2016-cı ilin aprel ayında cəbhədə aparılan hərbi əməliyyatlar zamanı da bizim bu "almayanaq" Əli Kərimli öz simasını gizlədə bilməmişdi. Bu adam (?) Azərbaycan Ordusunun ermənilərı darmadağın etməsini həzm edə bilmirdi, bircə nəfər AXCP üzvü həmin ərəfədə ordumuzun və dövlətimizin şəninə obyektiv bir kəlmə də işlətmədi. Cəbhədə ermənilər qırılırdı, sosial şəbəkələrdə də cəbhəçilər üz-gözlərini cırırdılar. Bu il də belə oldu, başda Kərimli olmaqla, 2 yaşlı Zəhranın ölümünə guya kədərləniblər, sosial şəbəkələrdə yalandan yaylıq bağlamağa nə var ki.***

Saatlıdan olan bir Füzuli adlı cəbhəçi Facebookda yazmışdı ki, dinc sakinlərin ölümünün mənə dəxli yoxdur, ölüb-ölüb də. Sual edirəm: AXCP-nin Saatlı rayon təşkilatının üzvü olan bu gədəni niyə partiyadan qovmadınız? Fikirləriniz üst-üstə düşdüyünə görəmi o, hələ də AXCP-dədir!? Yeri gəlmişkən, bu aralar Füzuli adlı cəbhəçilər yaman moda miniblər. Füzuli adlı başqa bir AXCP üzvü Ə.Kərimlinin saxta sənədləri, Fikrət Hüseynlinin vasitəsilə 1 ay öncə 2 uşağını götürüb, Almaniyaya getdi. Bu adamın özünü və ailəsini tanıdığıma görə tam məsuliyyətlə deyirəm: Füzuli qudurğanlıqdan getdi. Nəyi yox idi? İki evi, maşınları, obyekti və sairə. Sadəcə, bu adam Avropada yaşamağın xiffətini çəkirdi, elə bilirdi ki, Qərbdə yel əsib, qoz tökülüb. Bunu nəyə görə yazdım, onu deyim. Bu adamın xalası oğlunu iki gün öncə gördüm, deyir ki, Füzuli artıq peşmandır, buradan gedəndə, satdığı obyektləri geri qaytarmaq, ailəsini də götürüb, geri dönmək istəyir. Ay axmaq, ayda 7-8 min gəlirin var idi, 1 aydan sonra peşman olacaqdınsa, elə gedib turist kimi gəzib gələrdin də. Daha AXCP sədrinin saxta arayışları ilə bu cür düşüklük etmək nəyə lazım idi!?

Qardaş Türkiyənin telekanallarından birinin əməkdaşı insanlar arasında sorğu keçirib və onlara belə bir sual ünvanlayıb: "Qarabağda müharibə başlasa, gedərsənmi?" Bəli, soruşda iştirak edənlərin, demək olar ki, hamısı erməniləri məhv eləməyə hazır olduğunu bildirib. İndi gəlin sosial şəbəkələrdə "Meydan TV", "Azadlıq" qəzeti, "Ali Karimli" səhifələrinin izləyicilərinin fikrinə baxın. Belə bir sual hər üç səhifədə insanlara ünvanladı, özü də təxribat məqsədilə. İnanın ki, cəbhəçilərin və "Nida"çıların hamısı dedilər ki, getmərik, Qarabağda nə işimiz var!? Başladılar dövlətimizin ünvanına təhqir dolu fikirlər səsləndirməyə. Vallah, bunların damarından türk qanı axmır. Şəxsən mən özüm bələlərini qınamıram, çünki bunlar "korlanmış" adamlardılar. Dodağına və burnuna sırğa taxan "kişi" nə bilir milli qeyrət nədir!?

## "Arif Hacılı ənənəvi olaraq maksimalist bəyanatlarla çıxış edir"

### Elçin Mirzəbəyli: "Adıçəkilən şəxsin təşəbbüslərinə uzun-uzadı münasibət bildirmək istəmirəm və bunu vaxt itkisi hesab edirəm"



Müsavat partiyasının başqanı Arif Hacılının facebookda verdiyi bəyanatı ölkənin müxtəlif ictimai-siyasi dairələri tərəfindn istehza ilə qarşılanıb. SİA-nın məlumatına görə, Müsavat başqanı sosial şəbəkədəki şəxsi hesabında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı "Dağlıq Qarabağı işğaldan azad etmək üçün türk ordusuna əmr verməyə" çağırış edib. Məhz bu çağırışdan sonra istər iqtidar, istərsə də müxalifət düşərgəsində, hətta müsavatçılar arasında Hacılının çağırışı gülüşlə qarşılanıb.

### "Belə bir müraciətlə çıxış edən şəxsin siyasi kimliyi barədə fikir bildirməyin özü belə qeyri-ciddi görünə bilər"

Özünü "ana müxalifət" hesab edən bir partiya sədrinin başqa bir ölkənin prezidentinə çağırış etməsi, yaxud da əmr verməsini Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini, siyasi ekspert Elçin Mirzəbəyli də qeyri-ciddi qarşıladığını bildirib. O, bizə verdiyi açıqlamasında bildirib ki, Müsavat başqanı Arif Hacılı gündəmə gəlmək üçün başqa vasitə görmədiyinə görə, ənənəvi olaraq maksimalist bəyanatlarla çıxış edir. "Belə bir müraciətlə çıxış edən şəxsin siyasi kimliyi barədə fikir bildirməyin özü belə qeyri-ciddi görünə bilər"-deyə qeyd edən BAXCP-nin sədr müavini belə düşüncəsiz məsələlərə uzun-uzadı rəy verməyi də doğru hesab etmədiyini deyib: "Bu baxımdan, adıçəkilən şəxsin təşəbbüslərinə uzun-uzadı münasibət bildirmək istəmirəm və bunu vaxt itkisi hesab edirəm".

**Rövşən RƏSULOV**

## Avropa Azərbaycan Cəmiyyətinin fəalları Londonda Ermənistan səfirliyi qarşısında etiraz aksiyası keçiriblər

İyulun 4-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində dinc sakinlərin qətlə yetirilməsinə etiraz olaraq Ermənistanın Londondakı səfirliyi qarşısında aksiya keçirilib. Avropa Azərbaycan Cəmiyyətindən AZƏRTAC-a verilən məlumata görə, iyulun 8-də iki yaşlı Zəhranın qanlı cəsədini nümayiş etdirən fotoşəkillərini yaydıqdan sonra Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) fəalları və Azərbaycan diaspor üzvləri Ermənistan səfirliyinin pilləkənləri üzərinə beş əzilən və qana bulaşan müqəvva yerləşdiriblər. Bu rəmzi aksiyanı diaspora üzvləri Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndinin dinc sakinləri - iki yaşlı Zəhra Quliyevanın və onun nənəsinin qətlə yetirilməsi ilə əlaqələndiriblər. Bu fakt dinc əhalinin təhlükəsizliyi təmin etmək məqsədilə 12 Avqust 1949-cu il tarixdə qəbul olunan "Cenevrə Konvensiyası" və digər beynəlxalq sazişlərin tələblərinə ziddir. Ermənilərin mənfurcasına törətdikləri bu vəhşilik Böyük Britaniyanın, Fransanın, Belçikanın qanunverici orqanlarının və Avropa Parlamentinin üzvləri, eləcə də Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumların siyasətçiləri tərəfindən pislənib. Bu insan faciəsi Dağlıq Qarabağ münaqişəsinin həllinin sürətləndirilməsinin və erməni qoşunlarının münaqişə ərazisindən çıxarılmasını tələb edən BMT-nin dörd qətnaməsinin yerinə yetirilməsinin zəruriliyini bir daha göstərir.

## Bu gün 36 dərəcə isti olacaq



Azərbaycanda sabaha olan hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən SİA-ya verilən məlumata görə, iyulun 11-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi gündüz arabir güclənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 20-24, gündüz 29-34 dərəcə isti, Bakıda gecə 22-24, gündüz 31-33 dərəcə isti olacağı gözlənilir, Atmosfer təzyiqi 759 mm civə sütunundan 763 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-85 % , gündüz 55-65% təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 21-22 dərəcə, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 22-23 dərəcə, Türkan, Hövsan, Sahil, Şıxda 24-25 dərəcə isti təşkil edəcək. Azərbaycanın rayonlarında gözlənilən hava şəraitinə gəlincə, əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25, gündüz 31-36 dərəcə isti, dağlarda gecə 10-15, gündüz 20-25 dərəcə isti olacağı gözlənilir.

# Azərbaycanda elm və təhsilin vəhdəti məsələsi

***Müasir dövrdə elm və təhsilin rolu, təsir dairəsi artdıqca bütün dünyanın inkişaf etmiş dövlətləri bu sahəyə xüsusi diqqət yetirirlər. Bu gün artıq ali məktəblərdə güclü elmi mühit yaradılması, elmi-tədqiqat institutlarına qayğı göstərilməsi önəmli məsələlərə çevrilmişdir. ABŞ və Qərb ölkələri artıq elmlə təhsilin vəhdətini çoxdan gerçəkləşdirmiş, ali məktəblərdə güclü beyin mərkəzləri və intellekt mühit yarada bilmişlər. Ona görə də, ali məktəb mütəxəssisləri dünya standartlarına cavab verən, intellekt qabiliyyətləri ilə seçilən güclü elmi potensialı olan kadrlar kimi yetişirlər.***

Bir çox postsovet ölkələri də bu təcrübədən istifadə edərək, elm-təhsil nazirlikləri formalaşdırmaq yolu tutublar. Belə bir şəraitdə iqtisadi cəhətdən inkişaf edən Azərbaycan Respublikası da elm və təhsilə hərtərəfli qayğı göstərir.

Elm və təhsilə daim qayğı göstərən Ulu Öndər Heydər Əliyev vaxtilə deyirdi: "Ümumi çətinliklər nə qədər çox olsa da, biz elmə, təhsilə daim qayğı göstərməliyik və elmin inkişafı üçün mövcud imkanlardan daha da çox istifadə etməliyik".

Bu gün Azərbaycanda elm və təhsilin birgə inkişaf konsepsiyasının reallaşdırılmasını, kadr hazırlığını genişləndirməyi, ali məktəblərdə elmin inkişafına şərait yaradılmasının önə çəkilməsi məsələsinə diqqət yetirilir.

Elm və təhsil sahəsində Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi ideoloji və metodoloji kurs aşağıdakından ibarətdir: "Keçmiş tariximizə hörmət və diqqətlə yanaşmalı, yaxşı ənənələri qoruyub-saxlamalı və ancaq ənənələrə əsaslanan zəmində, əlbəttə, inkişaf etmiş ölkələrin və qabaqcıl ölkələrin təcrübəsini də nəzərə almaqla yeni sistemlər qurulmalıdır".

Əslində, Ulu Öndər haqlı olaraq keçmiş ənənələrə əsaslanaraq, bu gün müasir prinsiplərə söykənən elm-təhsil sistemi yaratmağı həmişə önə çəkirdi. Buna görə də, S.Xəlilov Ulu Öndərin prinisplərinə əsaslanaraq yazır: "Bu mövqedən yanaşdıqda, biz sovet elm və təhsil sisteminin ənənələrini və yaxşı cəhətlərini qorumaqla yanaşı, onları müasir Qərb standartlarına uyğunlaşdırmalıyıq. Bu baxımdan, hətta aspiranturanın və ilk elmi dərəcənin adı dəyişilsə də, mahiyyəti saxlanılmalıdır. Əsas məsələ budur ki, Azərbaycanın Avropa ölkəsi kimi müvafiq standartlara uyğunlaşdırılması, elm və təhsil sahəsindəki identifikasiyanın həyata keçirilməsi bizim indiyədək əldə etdiyimiz nailiyyətlərə söykənmiş olsun".

Əslində, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununda bu cəhətlər nəzərə alınmışdır.

Ulu Öndər Heydər Əliyev böyüməkdə olan nəslin elm və mədəniyyətə, yüksək səviyyəli təhsilə cəlb edir, hələ sovet vaxtı onları keçmiş SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərirdi. Bu gün Azərbaycanın müxtəlif sahələrində çalışan yüksək ixtisaslı kadrlar, məhz Ulu Öndərin xaricə göndərdiyi həmin gənclər nəslinin nümayəndələridir. Ulu Öndər Heydər Əliyev təkidlə deyirdi: "Gənclərimizi elmə, mədəniyyətə daha da çox cəlb etmək lazımdır. Gənclərimizdə elmi-tədqiqat işlərinə həvəs oyatmaq lazımdır.

Ümidvaram ki, bizim bugünkü gənclərimiz keçmiş dövrlərdə olan gənclərdən daha da yüksək təhsil ala biləcəklər və gələcək üçün daha da bilikli, daha da yüksək səviyyəli olacaqlar".

Bu gün müstəqil Azərbaycan Respublikası üçün yeni kadrların hazırlanması daha da aktuallaşıb, nəzəri və praktik əhəmiyyət kəsb edir.

S.Xəlilov bu məqama diqqət yetirərək yazır: "Bu gün Azərbaycan beynəlxalq siyasət arenasına inamla çıxa bilirsə, özünəməxsus siyasi mövqeyi və nüfuzu varsa, bunlar hamısı ancaq onun rəhbərinin şəxsi nüfuzu, beynəlxalq siyasi təcrübəsi və böyük intellektual potensialı sayəsində mümkün olur. Lakin cəmiyyətin bütün pillələrində, ayrı-ayrı müəssisə və təşkilatlardan başlamış ümumölkə miqyasına qədər elmi əsaslardan təşkili və idarə olunması üçün müasir Azərbaycan cəmiyyətşünaslığının yaradılmasına böyük ehtiyac vardır və bu işə, heç şübhəsiz, marksist-leninçi ictimai-siyasi fikrin təsirindən azad olan gənc cəmiyyətşünas alimlərin cəlb edilməsi tələb olunur".

Müəllif haqlı olaraq göstərir ki, respublikamızın sosial-iqtisadi və mənəvi həyatında uzun illərdən bəri yığılıb qalmış ciddi problemlərin sistemli şəkildə öyrənilməsi, keçid dövrünün xüsusiyyətlərinin aşkar edilməsi, bu sahədə kompleks tədqiqatlar aparılması bütün cəmiyyətşünas alimlərin - filosofların, sosioloqların, iqtisadçıların, tarixçilərin və s. qarşılıqlı əməkdaşlığını və birgə fəaliyyətini tələb edir. Bizim hamımızın bir ümumi tədqiqat obyektimiz var. Bu da ümumdünya kontekstində götürülmüş Azərbaycandır; onun tarixi, mədəniyyəti, dili, habelə sosial, iqtisadi, siyasi, ekoloji və demoqrafik problemləridir. Bu problemlərin müxtəlif müstəvilərdə, rakurslarda tədqiqi ilə məşğul olan alimlərimiz bir-birindən ayrı düşmüş, bir-birini dinləmək, fikir mübadiləsi aparmaq imkanından məhrum olmuşlar. Hərə öz şöbəsindən, kafedrasından, ən yaxşı halda isə, öz institutundan kənarda fəaliyyət göstərən tədqiqatçılardan xəbərsizdir. Alim ziyalılarımız arasındakı pərakəndəlik, akademiyada, ali məktəblərdə və digər elmi müəssisələrdə çalışan alimlərin tədqiqatlarının əlaqələndirilməsi, vahid elmi cəbhə yaradılması, elm adamlarının passiv həyat mövqeyi gənc alimlərin formalaşmasına pis təsir göstərir.




Müasir dövrdə cəmiyyətşünaslığın əsas məqsədlərindən biri ictimai problemlərin öyrənilməsi sahəsində səyləri birləşdirməklə yanaşı, gənclərin intellektual tərbiyəsi üçün də şərait yaratmaq, onların müstəqil düşüncə və diskussiya mədəniyyətinə yiyələnməsinə nail olmaqdan ibarətdir.

Müstəqil Azərbayacanın hərtərəfli surətdə öyrənilməsi, kompleks tədqiqat proqramları yaradılması və bu işə gənc alimlərin cəlb edilməsi, istedadlı gənclərin intellektindən səmərəli istifadə olunması günün aktual problemlərindəndir.

XXI əsr yeni elmi potensiala əsaslanır və yüksək səviyyəli təhsil almış gənclər nəslinin yetişməsini tələb edir. Bunu çox uzaqgörənliklə görən Ulu Öndər Heydər Əliyev deyirdi: "Bizim gənclər gərək hazırlaşsınlar ki, XXI əsrdə Azərbaycanın inkişafını təmin edə bilsinlər. Bunun üçün biliklənmək, təhsil almaq, sağlam həyat tərzi keçirmək, mənəvi, milli dəyərlərimizə daim söykənmək və ümumbəşəri dəyərlərdən səmərəli istifadə etmək lazımdır".

Bu gün Ulu Öndərin layiqli siyasi varisi, dövlət başçısı İlham Əliyev böyük, müdrik şəxsiyyətin siyasətini uğurla davam etdirərək, dünyanın ən inkişaf etmiş ölkələrinə gəncləri təhsil almağa göndərərək, müasir dövrün yeni milli elm və təhsil elitasını yetişdirir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə — 11 iyul

## Süd məhsulları artıq çəkinin azalmasına kömək edir

ABŞ alimlərinə görə, süd məhsulları baş beynin fəaliyyətinə müsbət təsir göstərir. Bunu 900 nəfərin üzərində aparılan tədqiqatların nəticələri də sübut edir. Məlum olub ki, süd məhsullarının tərkibindəki D vitamini, zərdab proteini, maqnezium və kalsium artıq çəkinin azalmasına müsbət təsir göstərir, diabet riskini aradan qaldırır. Alimlərə yaddaşı möhkəmləndirən daha beş məhsul məlumdur. Bal informasiyanı mənimsəyib yadda saxlamağa kömək edir, həyəcan və narahatlıq hissini azaldır. Qarabaşağın tərkibi asan həzm olunan dəmirlə zəngin olduğu üçün diqqəti artırır. Bundan əlavə, dəmirin miqdarı alma, nar, qara çörək və qaraciyərin tərkibində də yüksəkdir. Bərk pendir sinir ucluqlarının fəallığını saxlayır, lazım gəldikdə onları boşaldır. Dəniz və balıq məhsulları orqanizmdə maddələr mübadiləsini yaxşılaşdırır, xolesterini əridir. Balığın tərkibindəki maddələr baş beyin damarlarını fəallaşdırır. Zəncəfil insanın hətta ən xırda damarlarının da qan dövranını yaxşılaşdırır.

## Stress və mənfi düşüncələr tərləməyə səbəb olur

Alimlərin fikrincə, xüsusən yay aylarında tərləmə və pis qoxu ətrafdakıları narahat edir. Bəzən isə çox tərləyən insan bunun fərqinə belə varmır. Bəs tərləmənin və pis qoxunun qarşısını necə almaq olar?. Tərləmə bədən istiliyini təşkil edən, bədəni toksinlərdən təmizləyən və duz tarazlığını qoruyan bir hadisədir. Sağlam bədən tərləyərək gündə təxminən yarım və ya bir litr suyu ifraz edir. Tər təzəykən qoxusuzdur, bir qədər dəri üzərində qaldıqdan sonra isə bədən qoxusu ilə qarışır. Dəridə yaranan nəmli, isti mühit və dəridə olan bakteriyalar pis qoxunun yaranmasına səbəb olur. Tərləmənin qarşısını almaq üçün mütəxəssislər bir çox üsullar məsləhət görürlər. Yayın isti günlərində tərləməni azaltmaq üçün bol su içmək məsləhət görülür. Belə ki, su bədənin daxilini sərinləşdirir və maddələr mübadiləsinin sürətini yavaşıdır. Beləliklə, tərləmə nisbəti aşağı enir. İsti günlərdə çay və qəhvə içmək məsləhət görülmür. Çünki bu içkilər güclü qoxuya səbəb olan tər vəzilərinin fəaliyyətini artıraraq, bədən qoxusunun artmasına səbəb olur.

## Çoxlu meyvə-tərəvəz yeyin, genetik xəstəliklər sizdən uzaq olsun!

Alimlərə görə, düzgün qidalanma insana sağlam ürək bəxş edir, hətta əgər genetik təhlil onda ürək-damar xəstəlikləri riskinin yüksək olduğunu aşkara çıxarsa belə. MEDdaily xəbər verir ki, ekspertlər beş müxtəlif etnik qrupa aid olan 27 min insanın vəziyyətini öyrəniblər. Bu, 9p21 geninin yayılmış variasiyası (ürək xəstəliklərinin inkişafı) ilə sağlam qidalanmanın müsbət xassələri arasında əlaqəni başkara çıxarmağa imkan verib.

Müəyyən edilib ki, əgər insan çoxlu meyvə-tərəvəz yesə, genetik xəstəliklərdən yan keçə bilər. Çiy tərəvəz müvəffəqiyyətin başlıca açarıdır. Professor Soni Anandın sözlərinə görə, gündə 2-4 pay tərəvəz yemək tövsiyə olunur. Belə tövsiyələrə əməl edilməsi riski əslində sıfıra endirir. 9p21 geni insanların təxminən 75 faizində vardır. Onun iki surəti olan insanlarda ürək tutması riski 70 faiz çoxdur. Bir surətin sahiblərində isə bu göstərici 30 faizdir. Alimlər hesablayıblar ki, hamıdan pis qidalanan və genin iki surətinə sahib olan insanlarda miokardın infarktı xəstəliyinə tutulma riski iki dəfə çoxdur. Sağlam qidalanma isə riski minimuma endirməyə imkan verib.

Bundan əvvəl xəbər verildiyi kimi, Komplutense Universitetinin əczaçılıq fakültəsinin alimləri müəyyən ediblər ki, pomidor ürək-damar xəstəliklərinin müalicəsinə kömək göstərir. Onların sözlərinə görə, tomat antioksidantı - likopin xolesterinin səviyyəsini aşağı salır və ürək-damar xəstəliklərinin risk amillərini azaldır. Tibb işçiləri bunu da əlavə etmişlər ki, pomidor özü müalicəvi xassələrə malik deyildir. Bu tərəvəz yalnız dərmanla müalicəyə dəstək verir.


## ELAN

Əliyeva Gülnar Vidadi qızına Azərbaycan Dillər Universiteti tərəfindən 2010-cu ildə verilmiş diplom (B № 180378) itdiyi üçün etibarsız sayılır.


## Messi "Barselona"da hər həftə 1 milyon avro qazanacaq!




"Barselona" ilə Lionel Messi arasında imzalanacaq müqavilənin maddi tərəfləri mediaya bəlli olub. İspaniya mətbuatı yazıb ki, Kataloniya klubu argentinalı hücumçusuna bir həftəsinə 1 milyon avrodan çox pul təklif edib. Bu isə futbolçunu razı salıb. Beləliklə, yeni müqaviləyə əsasən, Messi ildə 62 milyon avro qazanacaq. Qeyd edilib ki, maaşın artırılması ilə bağlı təklif Messidən yox, klub rəhbərliyindən gəlib. Xatırladaq ki, bir neçə gün əvvəl "Barselona" rəsmi saytında yaxın vaxtlarda Messi ilə 2021-ci ilin iyunun 30-na qədər yeni müqavilə imzalayacağını açıqlayıb.

## Braziliyalı Ronaldonun oğlu milli komandaya dəvət olunub



Məşhur braziliyalı futbolçu Ronaldonun oğlu Ronaldo Nazario de Lima Braziliyanın U-18 milli komandasına dəvət olunub. Qol.az-ın xarici KİV-lərə istinadən yaydığı xəbərə görə, o, İsraildə keçiriləcək beynəlxalq yarışda iştirak edəcək. Bu münasibətlə Ronaldo İnstagramda yazıb: "Bu milli komanda Braziliyanı Makkabiadada təmsil edəcək. Oğlum Ronaldoya görə xüsusilə şadam. Uğurlar uşaqlar! İrəli, Braziliya!". Qeyd edək ki, Makkabiada hər dörd ildən bir İsraildə keçirilir. Bu yarışa yəhudilərin olimpiadası da deyilir. Amma yarışda yəhudi olmayan xalqların idmançıları da iştirak edir.

## "Real" Xames Rodrigesi 70 milyon avroya satacaq




"Real"ın yarımmüdafiəçisi Xames Rodriges klubu tərk etmək qərarı verib. "As" nəşrinin yazdığına görə, onun madridlilərlə ABŞ-a getməyəcəyi dəqiqləşib. yaxın 2 gün ərzində kolumbiyalı futbolçunun yeni komandasının adının qətiləşəcəyi gözlənilir. Qeyd edək ki, klub prezidenti Florentino Peres Xamesi saxlamaq istəyib. Amma Dani Sebalyosanın transferindən sonra o, getmək istəyib. Əlavə edək ki, futbolçu ilə "Mançester Yunayted", "Çelsi" və PSJ-nin maraqlandığı iddia edilir. "Real"ın Xamesi 70 milyon avrodan az qiymətə satmayacağı bildirilir.

## Güləşçilərimiz Dağıstanda xatirə turnirində 2 qızıl, 2 gümüş və 4 bürünc medal qazanıblar



Rusiya Federasiyası Dağıstan Respublikasının Kaspiysk şəhərində beşqat dünya çempionu Əli Əliyevin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə 48-ci beynəlxalq turnir keçirilib. Azərbaycan Güləş Federasiyasından AZƏRTAC-a verilən xəbərə görə, turnirdə iştirak edən sərbəst güləş yığmamızın üzvləri 2 qızıl, 2 gümüş və 4 bürünc medal qazanıblar. Keçirdikləri bütün görüşləri qələbə ilə başa vuran Mahir Əmiraslanov (57 kq) və Aslanbek Alborov (97 kq) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb və turnirin qızıl medalını qazanıblar.

Yalnız final görüşündə uduzan Ağahüseyn Mustafayev (65 kq) və Aleksandr Qostiyev (86 kq) gümüş medalla kifayətləniblər. Bürünc medalları isə yığmamıza Georgi Edişeraşvili, Pərviz İbrahimov (hər ikisi 57 kq), Qalib Əliyev (61 kq) və Məhəmməd Müslümov (65 kq) qazandırıblar.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500